

Milli azadlıqdan
şirin nemət yoxdur!

# 27 iyunda...

## Konstitusiya Məhkəməsinin Plenumu Prezidentin sorğusuna baxacaq




Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
25 iyun 2024-cü il, çərşənbə axşamı
№ 110 (6696)
Qiymәti 60 qəpik

# Dünya üçün vacib platforma



Bax səh. 2

# Terrorizmin bütün forma və təzahürləri ilə mübarizəni dəstəkləyirik

## Prezident İlham Əliyev Rusiya Prezidentinə və Dağıstanın rəhbərinə başsağlığı verib

Bax səh. 2

# Şuşa - müqəddəs duyğular şəhəri

Bax səh. 4

## İcmal büdcənin gəlir və xərcləri də artırılır



Bax səh. 3

## 369 nəfər...

Ermənistanın mina terroru davam edir. 30 illik işğal dövründə Ermənistan çoxlu sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. Xatırladaq ki, iyunun 21-də Cəbrayıl rayonu ərazisində minatəmizləmə prosesi zamanı baş verən partlayış nəticəsində ANAMA-nın əməkdaşı, 1980-ci il təvəllüdlü İsayev Raqif Deputat oğlu həyatını itirib. Hadisə zamanı müxtəlif dərəcəli bədən xəsarətləri alan digər şəxslər isə xəstəxanaya təxliyə ediliblər. Bununla da, 2020-ci il Vətən müharibəsindən bəri mina qurbanlarının ümumi sayı 369 nəfərə yüksəlib...

Bax səh. 3

## Xankəndi dirçəlir...




Bax səh. 3

## Niyə 2026?

Ermənistanın yenidən sülh mövqeyindən uzaqlaşması müşahidə edilməkdədir. Aprel-may aylarında vasitəçisiz təmasların ardından mövqeyində sülhlə bağlı ştrixlərin gözə dəydiyi İrəvan yeni manipulyasiyalara əl atır. Belə ki, hələ 2022-ci ildə Azərbaycanın irəli sürdüyü sülh şərtlərində Ermənistanın ölkəmizə qarşı əsassız torpaq iddialarından əl çəkməsi ilə bağlı məsələ vardı. Qeyd edək ki, bu iddialar Ermənistanın əsas qanununda - Konstitusiyasında yer alır. Belə ki, Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-yə yenidən birləşmək haqqında" birgə qondarma qərardan bəhs olunur. Yəni, rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına iddia ortaya qoyur. Bu əsassız iddianın aradan qaldırılması üçün isə mütləq şəkildə Ermənistan Konstitusiyasında zəruri...

Bax səh. 4

## Hökumətin rəqəmsal uğuru...

Dünya İqtisadi Forumunun "IDEA: Azərbaycanın rəqəmsal iqtisadiyyatına investisiya" hesabatında Azərbaycanın müasir İT yenilikləri, startaplar və innovasiyalar üzrə yaratdığı əlverişli biznes mühiti müsbət qiymətləndirilib. Hesabatda vurğulanır ki, Azərbaycana birbaşa xarici investisiyaların əsas hissəsinin neft-qaz sektoruna daxil olmasına baxmayaraq, ölkədə fəaliyyət göstərən xarici investorların fəaliyyətinə diqqətlə nəzər saldıqda yeni investisiya layihələrinin əksəriyyəti maliyyə, biznes xidmətləri, proqram təminatı, İT xidmətləri və sənaye avadanlıqlarının istehsalı kimi sektorlarda cəmləşib. Bu isə Azərbaycanın sosial-iqtisadi inkişaf məqsədlərinə xidmət etməklə qeyri-neft sahələrinin inkişafını və özəl sektorun fəaliyyətini stimullaşdırıb.Yeni yaradılmış sənaye texnoparkları və biznes inkubatorları rəqabətli sənaye məhsulunun istehsal və ixracında əhəmiyyətli rol oynayıb.

Rəqəmsallaşma Azərbaycanın son illər iqtisadi idarəetməsinin ayrılmaz tərkib hissəsi kimi xüsusi olara ön plana keçməklə...

Bax səh. 5

## Təxribatların izi ilə...

Son günlər Ermənistanda müşahidə olunan proseslər heç də ürəkaçıcı deyil - ölkədə siyasi böhranın dərinləşməsi ilə yanaşı, Azərbaycana qarşı yeni aqressiyanın da ortaya çıxdığı müşahidə edilir. Xüsusilə, iki ölkə arasındakı şərti sərhəd bölgələrində tez-tez atəşkəsin pozulması, Ermənistan silahlı qüvvələrinin təxribatçı hərəkətləri və atıcı silahlardan istifadəsi birmənalı qarşılana bilməz. Maraqlıdır ki, bu atəşkəs pozulması faktları bütün şərti sərhəd xətti boyunca müşahidə olunur - məsələn, əgər iyunun 14-də Ermənistan silahlıları Soylan rayonunun Xaçik yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Axura yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimizə atıcı silahlardan atəş açırdılarsa, iyunun 22-də artıq koordinat dəyişib. Bu dəfə Kəlbəcər rayonunun Mollabayramlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimiz Ermənistan silahlı qüvvələrinin üzbəüz istiqamətdəki mövqelərindən atıcı silahlardan yenidən atəşə tutulub. Xatırladaq ki, bu barədə Azərbaycanın Müdafiə Nazirliyi məlumat yayıb. Azərbaycan Ordusunun qeyd olunan istiqamətdə yerləşən...

Bax səh. 6

## Orban xanım Lyayenin işindən niyə narazıdır?

Avropa İttifaqının strukturlarına rəhbərlərin seçilməsi hazırda gündəmin əsas mövzularından biridir. Avropa Parlamentinə iyunun 6-dan 9-dək keçirilmiş seçkilər Avropa İttifaqının əsas təsisatlarının, o cümlədən Avropa Komissiyasının rəhbərliyinin yenilənməsinə yol açır. Avropa İttifaqı strukturlarında mühüm postlardan biri də Avropa Komissiyasının Prezidenti vəzifəsidir. Qurumun hazırkı rəhbəri Ursula Fon der Lyayen hələ fevralın 19-da bu vəzifə üçün ikinci müddətə namizədliyini elan etmişdi. Onun təmsil olunduğu Avropa Xalq Partiyası da Avropa Parlamentinə seçkilərdə birinciliyi qazanıb. Bu fakt xanım Lyayenin yenidən Avropa Komissiyasının Prezidenti vəzifəsinə seçilməsi üçün ciddi əsas yaradır.

Ötən gün Brüsseldə keçirilən Avropa İttifaqı ölkələrinin qeyri-rəsmi sammiti çərçivəsində növbəti beş il üçün strateji gündəlik, həmçinin Avropa Komissiyası, Avropa İttifaqı Şurası və Avropa İttifaqının rəhbər postlarına namizədlər müzakirə edilib. Ursula Fon der Lyayen ikinci müddətə Avropa Komissiyasının rəhbəri...

Bax səh. 7

## Aİ-nin 14-cü sanksiya paketində nələr var?



Bax səh. 7

## Rusiyada növbəti terror



Bax səh. 7



# Terrorizmin bütün forma və təzahürləri ilə mübarizəni dəstəkləyirik

## Prezident İlham Əliyev Rusiya Prezidentinə və Dağıstanın rəhbərinə başsağlığı verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dağıstanda törədilmiş terror aktları nəticəsində dinc vətəndaşların və hüquq-mühafizə orqanlarının əməkdaşlarının həlak olması ilə əlaqədar Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə və Rusiyanın Dağıstan Respublikasının rəhbəri Sergey Məlikova başsağlığı verib.

AZƏRTAC xəbər verir ki, Dərbənddə və Mahaçqalada törədilmiş və çoxsaylı insan tələfatı ilə nəticələnən terror aktları barədə xəbəri dərin kədər hissi ilə qarşıladığını bildirən dövlətimizin başçısı bu qanlı cinayətləri qətiyyətlə pislədiyimizi, terrorizmin bütün forma və təzahürləri ilə mübarizəni dəstəklədiyimizi qeyd edib.

Prezident İlham Əliyev Azərbaycan xalqı adından və şəxsən öz adından Prezident Vladimir Putinə və Dağıstanın rəhbəri Sergey Məlikova, həmçinin həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verib, bütün zərərçəkənlərin tezliklə şəfa tapmasını arzulayıb.

# 27 İyunda

## Konstitusiya Məhkəməsinin Plenumu Prezidentin sorğusuna baxacaq

İyunun 24-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Palatasının növbəti iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının və növbədənkənar seçkilər təyin edilməsinin Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu barəsində Azərbaycan Respublikası Prezidentinin sorğusuna baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.



Sorğuya mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun iyunun 27-də saat 10:00-a təyin edilmiş iclasında baxılacaq.

# Dünya üçün vacib platforma




Azərbaycanın bir-birini tamamlayan enerji siyasəti və yaşıl gündəliyi bütün dünyada böyük maraqla izlənərək təqdir olunur. Təsadüfi deyil ki, son vaxtlar respublikamız hər iki istiqamətdə fəal müzakirələrin aparıldığı və mühüm qərarların verildiyi məkana çevrilib. İyunun əvvəlində Bakı Enerji Həftəsi çərçivəsində 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin keçirilməsi buna daha bir nümunədir. Prezident İlham Əliyev Bakı Enerji Həftəsi çərçivəsində "Euronews" televiziya kanalına müsahibə verərək Azərbaycanın enerji siyasətinin mərhələləri və yaşıl gündəliyi, uğurla baş tutan transformasiya prosesləri barədə ətraflı məlumat verib.

## İlk sərgidən Bakı Enerji Həftəsinədək

Bugünədək Bakı Enerji Həftəsi uzun yol qət edib. Otuz il öncə Bakı Enerji Həftəsi Xəzər Neft və Qaz Sərgisi kimi işə başlayıb. O vaxtdan bəri tədbir dünyanın hər bir guşəsindən enerji ekspertləri üçün əsas toplantı məkanına çevrilib, geniş silsilə mövzuları və yenilikləri əks etdirməklə əhatə dairəsini daha da genişləndirib. Sonuncu tədbirdə yalnız ötən dövrdə qazanılan uğurlara ekskurs edilməyib. Prezident İlham Əliyevin, ayrı-ayrı ölkələrin, müxtəlif təsisatların təmsilçilərinin və ekspertlərin iştirakı ilə aparılan müzakirələr çox doğru olaraq həm də gələcək nailiyyətlər üçün körpü qismində dəyərləndirilib.

Azərbaycanın zəngin potensialının bütün dünyaya təqdim edilməsi 30 il əvvəl baş tutan ilk tədbirin böyük mirasıdır. O dövrdə gənc müstəqil respublikamız bir sıra çətinliklərlə üzləşmişdi. Böyük potensial, xüsusilə də dənizdə zəngin karbohidrogen ehtiyatları olsa da, Azərbaycanın bu resurslardan bəhrələnmək imkanları məhdud idi. İlk növbədə bunun üçün investisiyalarımız yox idi. Həmçinin ölkədə qarşıdurmalar yaşanırdı və bu səbəbdən də xarici investorlar respublikamıza sərmayələr yönəltməyə ehtiyatla yanaşırdılar. Birinci Xəzər Neft və Qaz Sərgisi, əslində, ölkənin potensialının ilk beynəlxalq təqdimatı idi. Bu tədbirdən bir neçə ay sonra - 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bu da ölkənin transformasiyasında dönüş nöqtəsi oldu. Otuz il əvvəl ilk tədbirdən az sonra imzalanan"Əsrin müqaviləsi" çərçivəsində cəmi üç il müddətində "Çıraq" platformasından ilk neft hasil olundu. Ölkə neft gəlirləri əldə etməyə başladı və bu, bizim iqtisadiyyatımızın dirçəlməsinə, sosial problemlərin həllinə, neftdənkənar sahələrin inkişafına bir vəsilə oldu. Bəhs olunan müsahibəsində keçilən yola məmnuniyyətlə nəzər salan Prezident İlham Əliyev vurğulayıb: "Tədbir artıq 30 ildir keçirilir. Birincisi, o, hələ 1994-cü ildə təşkil olunmuşdur. İkincisi, ölkələrin coğrafiyasına və şirkətlərin sayına baxsanız görərsiniz ki, iştirakçıların sayı artır. Heç də hər enerji tədbiri ABŞ Prezidentinin müraciəti şərəfinə nail olmur. Bu tədbirin bütün illəri belə olub və bu, əslində, onun unikal mahiyyətini və gücünü nümayiş etdirir. Düşünürəm ki, bütün bu amillər həmin tədbiri müxtəlif məsələləri həll edən, inkişaf yolunu göstərən, çox inkişaf etmiş və inklüziv platformaya çevirir. Birincisi, Xəzər Neft və Qaz Sərgisi oldu. Sonra biz qaz hasilatına başladıq. Tədbir artıq Xəzər Neft və Qaz Sərgisi və Konfransı adını aldı. Sonra biz bərpaolunan enerji sahəsində işə başladıq və tədbir fərqli sektorları əhatə edən Bakı Enerji Həftəsinə çevrildi. Siz qısa müddət ərzində bir ölkədə hər istiqamətdə - neft, təbii qaz və indi isə yaşıl enerji sahələrində uğurları görə bilərsiniz".

Bütövlükdə, sonuncu Bakı Enerji Həftəsində 37 ölkədən 300-dək şirkət iştirak edib. Bu ölkələr arasında İsveç, Hindistan və Sloveniyadan olan şirkətlər ilk dəfə tədbirə qatılıblar. Builki sərginin tərkibi iştirakçıların ümumi sayının 15 faizini təşkil edən yeni şirkətlər hesabına yenilənib. Onların əksəriyyəti Azərbaycanın yaşıl enerji sahəsinə yüksək maraq göstərən iştirakçılardır. Sərgi sahəsinin 40 faizi isə tanınmış şirkətlərə, bu mühüm tədbirin daimi iştirakçılarının ixtiyarına verilib. Bir sıra nüfuzlu beynəlxalq təsisatların yüksəksəviyyəli rəsmilərinin iştirakı və çıxışları da Bakı Enerji Həftəsinin qlobal enerji gündəliyi üçün nə qədər aktual olduğunu təsdiqləyən faktdır.




## Azərbaycan bərpaolunan enerjiyə sərmayə yatıranlar üçün cəlbedici məkandır

Bəhs olunan müsahibədə Prezident İlham Əliyevin diqqət çəkdiyi mühüm məsələlərdən biri ölkəmizin "yaşıl enerji" gündəliyi ilə bağlıdır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, sonuncu Bakı Enerji Həftəsi bir daha göstərdi ki, Azərbaycan nəinki ənənəvi enerji mənbələrinə, o cümlədən bərpaolunan enerjiyə sərmayə yatıranlar üçün cəlbedicidir. Prezident İlham Əliyev bu fikri ifadə edərkən ilk növbədə ölkəmizin zəngin potensialına istinad edib. Bəli bu gün "yaşıl enerji"yə keçid dünya üçün bir çağırışdır. Bunu həm innovasiyalar, artan sənaye gücləri, həm də getdikcə ciddiləşən ekoloji tələblər, iqlim dəyişikliyi diqtə edir.

Qlobal iqlim çağırışlarına münasibətdə güclü siyasi iradə ortaya qoyan Azərbaycan həmçinin bərpaolunan mənbələrdən enerji istesalı üzrə praktiki müstəvidə fəal siyasət həyata keçirir. Bu istiqamətdə ölkəmizin xarici tərəfdaşlarla əməkdaşlığı getdikcə genişlənir. Ötən ilin oktyabrında "Masdar" şirkətinin investisiyaları hesabına yaradılan 230 meqavatlıq ilk Günəş enerjisi stansiyasının açılışı baş tutdu. Sonuncu Bakı Enerji Həftəsi çərçivəsində isə ümumi gücü 1 qiqavat olan üç Günəş və külək enerjisi stansiyalarının təməlqoyma mərasimi keçirilib.

Bildirildiyi kimi, bu, yalnız başlanğıcdır. Ölkəmiz tərəfdaşları ilə birlikdə orta perspektivdə 10 qiqavata və 2030-cu ilədək 5 qiqavata qədər gücü əhatə edən bütün müqavilələri və anlaşma memorandumlarını icra etməyi planlaşdırır. Hədəf məhz belə müəyyənləşdirilib və bunun üçün potensial var. Prezident İlham Əliyevin vurğuladığı kimi, yaxşı sərmayə mühiti var. Bu, həqiqətən göstərir ki, ölkə ənənəvi enerjidən əldə etdiyi gəlirləri hazırda bərpaolunan enerjiyə yönəldir. "COP29-a ev sahibliyi edəcək ölkə kimi yaşıl enerjiyə keçid prosesində öndə gedənlərdən olmaq bizim üzərimizə düşən öhdəlikdir", - deyə dövlətimizin başçısı vurğulayıb.

## Çətinliklər də yox deyil...

İndiyədək ənənəvi enerji istehsalında və ixracında zəngin təcrübə qazanan Azərbaycan enerji siyasətinin üçüncü mərhələsinə təzə başlayıb. Qeyd olunduğu kimi, planlar tərəfdaşlarla birlikdə reallaşdırılır. "Artıq qeyd etdim, "Masdar" strateji tərəfdaşdır. Həmçinin "ACWA Power" var. Daha sonra, BP sərmayədarlarımız sırasındadır və bizimlə işləməyi planlaşdıran digər ölkələrin bir çox şirkətləri var. Bir sözlə, biz neft və qaz sahəsində hər şeyi başdan-ayağa bilirik. Burada isə biz təzə başlayırıq", - deyə Prezident İlham Əliyev bildirib.

İşin başlanğıcı isə, əlbəttə ki, çətinliklərsiz ötüşmür. Çətinliklərdən biri milli enerji şəbəkəsi ilə bağlıdır. Şəbəkə gücləndirilməlidir. Əks halda, sərmayədarların verdiyi enerjini qəbul etmək mümkün olmaz. Digər çətinlik ötürmə xətləri ilə bağlıdır. Burada istehsalçı ölkə olan Azərbaycan qonşu ölkələrlə fəal çalışmalar həyata keçirməlidir. "Azərbaycanın özünə planlaşdırdığımız qədər bərpaolunan enerji lazım deyil və bu səbəbdən hədəfimiz ixracdır. Bərpaolunan enerjidən istifadəyə olduqca düşünülmüş yanaşma tətbiq edilməlidir ki, elektrik enerjisi maksimum istehsal olunsun və təbii qaza qənaət edilsin ki, o, əsasən indi Avropaya lazım olan qaydada nəql olunsun. Yalnız daxili gündəliyimizdən asılı olan və həll edilməli bir çox məsələlər, şübhə etmirəm ki, tam reallaşacaq. Lakin beynəlxalq tərəfdaşlıq tələb edən məsələləri biz tərəfdaşlarımızla həll etməliyik", - deyə dövlətimizin başçısı bildirib.

## COP29 çərçivəsində həmrəyliyə nail olmaq əsas məqsədlərdən biridir

Azərbaycan BMT-nin ən böyük tədbirlərindən birinə - COP29-a ev sahibliyinin məsuliyyətini öz üzərinə götürməklə qlobal iqlim çağırışlarına necə böyük həssaslıqla yanaşdığını bir daha ortaya qoyub. Respublikamız öz nümunəsində təsdiqləyir ki, iqlim çağırışları ölkələr üçün həm də ciddi bir öhdəlikdir. Qeyd edək ki, BMT-nin Davamlı İnkişaf Məqsədlərinə, Kioto protokoluna, Paris razılaşmasına qoşulan ölkəmiz özü üçün 2050-ci ilədək "sıfır emissiya " hədəfi müəyyənləşdirib və hesabatlarını vaxtında təqdim edir.

Hazırda Azərbaycan cari ilin noyabrında ev sahibliyi edəcəyi COP29-a məsuliyyətli hazırlıq həyata keçirir. Bu məqsədlə proaktiv addımlar atılır. O cümlədən BƏƏ və növbəti COP-a ev sahibliyi edəcək Braziliya ilə birlikdə "Troyka" təsis edilib.

Bütövlükdə, COP29 üçün ciddi və geniş əhatə dairəsinə malik gündəlik müəyyənləşdirilib. Azərbaycan iqlim dəyişikliyi ilə bağlı məsələləri, həmçinin bundan əziyyət çəkən ölkələrin problemlərini müzakirələrdən praktiki müstəviyə keçirməyi niyyətindədir. Bəzi ölkələr üçün iqlim dəyişikliyi artıq mövcudluq məsələsinə çevrilib. Zaman gözləmir. Belə ölkələrə təcili qaydada kömək göstərilməlidir. "Bəli, ev sahibliyi edən ölkə kimi bizim əsas məqsədlərimizdən biri birliyi və həmrəyliyi yaratmaqdır. Biz COP zamanı və ondan sonra sədrliyimizin davam edəcəyi dövrdə elə müsbət mühit qurmaq istəyirik ki, ölkələr və şirkətlər bir-biri ilə istəklə işləsin və qarşılıqlı iddiaları kənara qoysunlar, planetin qorunması ilə əlaqədar əsas gündəliyə diqqət yetirsinlər", - deyə dövlətimizin başçısı vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# "Yaşıl enerji"nin payı ümumi enerji istehsalında 14 faizə yüksəlib

2024-cü ilin yanvar-may ayları ölkəmizdə elektrik enerjisinin istehsalı 11 milyard 231,4 milyon kVt·st olub. Bu dövrdə elektrik enerjisi istehsalı İES-lərdə 9,6 milyard kVt·st, SES-lərdə 2 milyard kVt·st-a yaxın olub. "Yaşıl hidrogen"in əsas mənbəyi olan SES-lərdə istehsal gücləri daha fəal olub və ötən ilin müvafiq dövrünə nisbətən 525 milyon kVt·st artım əldə edilib. Həmçinin, bərpa olunan digər enerji mənbələri üzrə elektrik enerjisi istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 189,4 milyon kVt·st artaraq 348,5 milyon. kVt·st-a çatıb. Külək elektrik stansiyalarında 26,3 milyon kVt·st, günəş elektrik stansiyalarında 206,5 milyon kVt·st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 115,7 milyon kVt·st elektrik enerjisi istehsal edilib. Beləliklə, 2024-cü ilin 5 ayı ərzində Azərbaycanda elektrik enerjisi istehsalında "yaşıl enerji"nin payı 14 faizə yüksəlib.

Bu rəqəmlər bir daha təsdiq edir ki, artıq Azərbaycanda "yaşıl enerji" strategiyası uğurlu başlanğıcla irəliləyir və bərpa olunan enerji növlərinin hər birində artım müşahidə edilir. Bu isə hökumətin 2030-cu ilə qədər elektrik enerjisində bərpa olunan enerjinin qoyuluş gücü üzrə payını 30 faizə çatdırmaq və "yaşıl enerji" sahəsində lider olmaq üçün mövcud enerji siyasətinin uğurla icrasından xəbər verir.

Yaxın 5-6 ildə "yaşıl enerji" gücünü 2 dəfə artırmaqla Azərbaycan həmin hədəf göstəricisini adlayacaq. Qiymətləndirmələrə əsasən, Azərbaycanda "yaşıl enerji" mənbələrinin potensialı quruda 135 QVt, dənizdə 157 QVt proqnozlaşdırılır.Təkcə, Qarabağ və Şərqi Zəngəzur bölgəsində hidroenerji, külək və günəş enerjisi, termal su mənbələrinin gücü 7200 MVt-dan artıq qiymətləndirilir. Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olduğu proqnozlaşdırılır. Hidroenerji ehtiyatlarına görə Tərtərçay, Həkəri çayı və bu çayların qolları əsas resurs mənbələri hesab olunur. İndiyə qədər bu ərazilərdə 10 ədəd kiçik su elektrik stansiyası inşa edilərək istifadəyə verilib, digər hidrogen infrastrukturlarının yaradılması işləri davam etdirilir. Ümumilikdə, 2 il ərzində Qarabağ və Şərqi Zəngəzurda 12 yerdə ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal edəcək su elektrik stansiyalarının tikintisinin başa çatdırılması nəzərdə tutulub. Bu isə bu bölgədə bərpa olunan təmiz enerjinin gücünün 1 QVt-ı ötməsinə səbəb olacaq.

Azərbaycan hökuməti "yaşıl enerji" sektorunda islahatları 2 istiqamətdə aparır. Birincisi, yerli yaşıl güclərin istehsalı və emalına xarici investorların cəlb edilməsidir ki, bunun üçün ölkəmiz çox məharətlə qoyulub. Son 2 ildə Azərbaycan Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power", Böyük Britaniyanın "bp", Avstraliyanın "Fortescue Future Industries", Yaponiyanın "TEPSCO", İtaliyanın "Maire Tecnimont", Çinin "China Gezhouba Group Overseas Investment", Fransanın "Total Energies" və digər xarici şirkətlərlə bərpaolunan enerji istehsalına dair müqavilələr imzalayıb. Ümumilikdə, Avropa İttifaqı daxil olmaqla 23 ölkə, 6 beynəlxalq təşkilat və 44 şirkətin təmsil olunduğu tədbirdə "yaşıl enerji" sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb. Bundan başqa, Azərbaycanda Dünya Bankı (DB) , Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) , Asiya İnkişaf Bankı (AİB) kimi beynəlxalq maliyyə təşkilatlarının dəstəyi ilə layihələr həyata keçirilir. AYİB 2027-ci ilədək 8 külək və günəş elektrik stansiyasının inşasına kreditlər ayıracaq. Ötən ay Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" şirkəti ilə maliyyə tutumu 1 milyard dollar olan müqavilələrin imzalanması isə "yaşıl enerji" hərəkatında yeni dalğanın başlanğıcı sayıla bilər.



Xarici investorların bu sahəyə marağının daha da artırılmasını təmin etmək məqsədilə ölkəmizdə qüvvəyə minən "yaşıl vergi" güzəştləri isə sərmayə imkanlarını daha da artıracaq. Bu vergi stimullarının tətbiqi sayəsində qarşıdakı dövrdə "yaşıl enerji" strategiyası çərçivəsində ekoloji sahədə fəaliyyət göstərən, ətraf mühitin sağlamlaşdırılmasına töhfə verən biznes subyektlərinin, eləcə də bərpaolunan enerji mənbələrinin istehsalında fəal rol oynayan xarici sərmayəçilərin bu tipli layihələrə marağının artırılmasına və investisiyaların stimullaşmasına səbəb olacaq. Məsələn, Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti qarşıdakı illərdə ölkəmizin yaşıl güclərinə 5 milyard dollara yaxın investisiya yatırmaq niyyətini bəyan edib.

"Yaşıl enerji" siyasətinin ikinci istiqaməti isə resursların ixracının şaxələndirilməsidir. Bu istiqamətdə də fundamental hüquqi baza yaradılıb, iqtisadi infrastrukturlar möhkəmləndirilir. "Xəzər-Qara dəniz-Avropa" dəhlizinin yaradılması ilə artıq Azərbaycanın "yaşıl ixracatçı"ya çevrilmək statusu öz həlini tapıb.

*ELBRUS CƏFƏRLİ*

# Xankəndi dirçəlir...

Ötən il sentyabrın 19-20-də keçirilən 23 saatlıq uğurlu lokal xarakterli antiterror tədbirlərində separatçılardan təmizlənən Xankəndidən daha bir xoş xəbər gəlib. Belə ki, Xankəndi Prokurorluğunun inzibati binası istifadəyə verilib. Baş Prokurorluğun yaydığı məlumatda bildirilir ki, inzibati binanın istifadəyə verilməsi ilə əlaqədar təntənəli tədbir keçirilib. Tədbirdə Baş prokuror Kamran Əliyev, Baş Prokurorluğun rəhbər şəxsləri, millət vəkilləri, QHT sədrləri və digər ictimaiyyət nümayəndələri iştirak ediblər.



## Şəhərin tarixi-milli siması özünə qaytarılır

Tarixi mənbələrə əsasən, Xankəndi XVIII əsrin axırlarında o dövrdə müstəqil Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığının başçılarının - xanların istirahəti üçün salınıb. Qarabağ xanlığı Rusiyaya birləşdirildikdə Xankəndi axırıncı Qarabağ xanı Mehdiqulu xanın xanımı Pəricahan bəyimə hədiyyə olunub.

Türkmənçay müqaviləsindən sonra İran və Türkiyədən çox sayda erməni ailəsinin Qarabağda, o cümlədən də Xankəndidə yerləşdirilməsinə baxmayaraq, yaşayış məntəqəsinin tarixi adı uzun müddət saxlanılıb. Keçmiş sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi 1923-cü il iyulun 7-də “Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında” dekret verib. Həmin dekretlə Xankəndi vilayətin mərkəzi elan olunub. 1923-cü ilin sentyabrında şəhər Stepan Şaumyanın şərəfinə “Stepanakert” adlandırılıb. Cəmiyyətin tələbini nəzərə alan Azərbaycan SSR Ali Soveti isə 1991-ci ildə bəhs olunan yaşayış məntəqəsinin tarixi adının - Xankəndinin bərpa edilməsi ilə bağlı qərar imzalayıb.

Xankəndinin baş planı hələ sovet dövründə Heydər Əliyevin rəhbərliyi ilə təsdiqlənib və Azərbaycan SSR tərəfindən şəhərdə geniş tikinti işləri aparılıb. Amma işğaldan sonra şəhərin bütün mənzərəsi pozulub, baş plana uyğun olmayan yöndəmsiz binalar tikilib. Məsələn, bunlardan biri “Artsax parlamenti”nin binası adlanırdı. Binanın açılışı keçmiş separatçı rejimin elan olunmasının 16-cı ildönümü günü, yəni 2007-ci il sentyabrın 2-də olub.

İşğal illərində ucaldılan digər bir bədnam tikili “veteranlar binası” və yaxud “Artsaxı azad etmiş döyüşçülər ittifaqının binası” adlandırılırdı. Xankəndi şəhərinin mərkəzi meydandakı “veteranlar binası”nın açılışı 2013-cü il mayın 8-də baş tutub. Bu tarix, əlbəttə ki, təsadüfi seçilməmişdi. Şuşa məhz 1992-ci il mayın 8-də işğal olunmuşdu.

Uğurlu 23 saatlıq lokal xarakterli antiterror tədbirlərindən sonra vaxt itirilmədən Xankəndinin tarixi-milli simasının özünə qaytarılmasına və genişmiqyaslı quruculuq-abadlıq işlərinə start verilib. Artıq işğal illərində şəhərin simasına yamaq edilən binalar, saxta simvollar, xaçkarlar sökülüb. İşğaldan azad edilmiş digər ərazilərimiz kimi, Xankəndi də abadlıq-quruculuq meydanına çevrilib. Qarabağda suverenliyimizin bərpasından sonra eybəcər simvollardan təmizlənən tikililərdən biri Xankəndi şəhər stadionu oldu. Buradan qondarma bayrağın rəngləri ilə bəzədilmiş oturacaqlar sökülərək yeniləri ilə əvəzləndi və digər zəruri işlər görüldü. Açılışa hazırlanan Xankəndi şəhər stadionunda 21 dekabr 2023-cü ildə Azərbaycan kubokunun 1/8 finalında “Qarabağ” və MOİK komandaları üz-üzə gəldilər. Yenidən qurulan stadionda topa ilk dəfə ayaq vuran isə Prezident İlham Əliyev oldu...






Hazırda şəhərdə abadlıq-quruculuq işləri davam etdirilir. Verilən məlumatlara görə, məlum hadisələr zamanı Xankəndidən təxminən 15 min azərbaycanlı didərgin düşüb. Xankəndidən olan azərbaycanlıların da üç onillik ərzində yaşadıqları məşəqqətli qaçqınlıq və məcburi köçkünlük dövrünün sona çatacağı günə az qalıb. Növbəti mərhələdə Xankəndinə zamanında orada yaşamış soydaşlarımızın köçürülməsi həyata keçiriləcək.

## Prokurorluq orqanlarına göstərilən davamlı diqqət və qayğı

Xankəndi Şəhər Prokurorluğunun inzibati binasının istifadəyə verilməsi münasibətilə keçirilən tədbirdə Baş prokuror bildirib ki, Azərbaycan xalqı bu gün sözlə ifadə edilməsi mümkün olmayan misilsiz qələbə sevinci, yüksək fəxarət duyğuları, hədsiz fərəh, qürur hissləri yaşayır: “Ümummilli Lider Heydər Əliyev, eləcə də Azərbaycan Prezidenti İlham Əliyevin prokurorluq orqanlarına göstərdikləri daimi diqqət və qayğı hər zaman hiss olunub.

Ölkə Prezidentinin cari ilin 24 may tarixli sərəncamı ilə Xankəndi Şəhər Prokurorluğunun təsis edilməsi və qısa müddətdə qurumun bina, avadanlıq, rabitə, nəqliyyat vasitələri ilə təmin edilməsi, habelə digər maddi-texniki təminatı məsələlərinin həlli bunun göstəricisidir” , - deyə Baş prokuror vurğulayıb.

İnzibati binanın istifadəyə verilməsini prokurorluq orqanlarının əməkdaşlarının əməyinin yüksək qiymətləndirilməsi kimi dəyərləndirən Baş prokuror Azərbaycan dövlətinin inkişafı naminə bundan sonra da böyük səylə çalışacaqlarını bildirərək kollektivə uğurlar arzu edib. Binada vətəndaşların qəbul otağı, prokuror, prokuror köməkçiləri, müstəntiq və inspektorlar üçün otaqlar, dəftərxana və arxiv yaradılıb. Bina bütün zəruri avadanlıq, kompüter sistemi, kommunikasiyalar və mühəndis qurğuları ilə təchiz edilib, mebel və digər inventarlarla təmin olunub.

**Mübariz FEYİZLİ**

# İcmal büdcənin gəlir və xərcləri də artırılır

## Dövlət Neft Fondunun gəlirləri 2 milyard manatdan çox artırılaraq 14 milyard manatı ötəcək

Məlum olduğu kimi Milli Məclis “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda qəbul edib. İyunun 25-də sözügedən qanun layihəsinin üçüncü oxunuşda təsdiqlənməsi nəzərdə tutulur. Bununla yanaşı, icmal büdcənin tərkibinə daxil olan büdcədənkənar fondların da büdcəsinə dəyişikliklər ediləcək. Belə ki, yenidən baxılma ilə 2024-cü il icmal büdcənin gəlirləri 43 milyard 480 milyon manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 4 milyard 482,5 milyon manat və ya 11,5 faiz çoxdur. İcmal büdcənin xərcləri isə 45 milyard 591,8 milyon manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 3 milyard 215,6 milyon manat və ya 7,6 faiz çoxdur.




İcmal büdcənin tərkibinə daxil olan əsas maliyyə mənbələrindən biri olan Dövlət Neft Fondunun büdcəsinin gəlirləri cari ilin təsdiq olunmuş göstərici ilə müqayisədə 2 milyard 36 milyon manat və ya xud 16,9 faiz artırılaraq 14 milyard 109,2 milyon manat, xərcləri isə 4,7 milyon manat artırılaraq 12 milyard 904,9 milyon manat nəzərdə tutulur. Fondun gəlirlərinin əsas mənbəyini neft-qaz sazişləri üzrə Azərbaycanın payına düşən karbohidrogen ehtiyatlarının satışından əldə edilən xalis gəlirlər təşkil edəcək. Belə ki, həmin gəlirlər üzrə proqnoz 2 milyard 51,4 milyon manat və yaxud 25,2 faiz artırılaraq 8 milyard 146,2 milyon manatdan 10 milyard 197,6 milyon manata çatdırılacaq. Fondun digər gəlir mənbəyi olan neft-qaz sazişlərinin icrası ilə bağlı sərmayəçilərin ödədiyi bonuslar üzrə proqnoz isə 8,6 milyon manat və yaxud 1,1 faiz artırılaraq 775,9 milyon manat təşkil edəcək.

DNF-nin gəlir mənbələrinə, həmçinin, karbohidrogen ehtiyatlarının işlənilməsi ilə əlaqədar müqavilə sahəsindən istifadə üçün sərmayəçilərin akrhesabı ödənişləri, valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlirlər də daxildir ki, 2024-cü il ərzində həmin vəsaitlərin də həcmində artımlar gözlənilir. Fondun xarici ölkələrin nüfuzlu maliyyə institutlarında yerləşdirilmiş aktivləri yeni investisiya siyasətinə əsasən idarə olunur və təhlükəsiz saxlanılması, səmərəli idarətmə yolu ilə investisiya gəliri əldə etməklə davamlı artırılması məqsədlərini daşıyır. Cari il üzrə fondun investisiya portfelinin 55,5 faizi istiqrazlara və digər pul bazarı alətlərinə, 25,7 faizi səhmlərə, 5,8 faizi daşınmaz əmlaka, 13,2 faizi isə qızıla yerləşdirilib.

Neft Fondunun 2024-cü ildə xərclərinin əsas istiqamətlərində ilk yerdə dövlət büdcəsinə transfert dayanır ki, bu vəsaitin həcmi 12 milyard 781 milyon manat proqnozlaşdırılır. Digər xərc maddəsi olan “2019-2023-cü illər üçün ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın maliyyələşdirilməsinə əlavə 4,7 milyon manat yönəldilməklə cəmi 38,2 milyon manat xərclənəcək. “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı”nın maliyyələşdirilməsinə isə 47,4 milyon manat sərf edilməsi nəzərdə tutulub.

Qeyd edək ki, 2024-cü ilin 1 aprel tarixinə olan göstəriciyə əsasən, DNF-nin aktivlərinin cəmi məbləği 57,4 milyard dollar təşkil edir ki, bu da Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin olunması üçün güclü təhlükəsizlik yastığı deməkdir.

2024-cü ilin büdcə layihəsinə dəyişikliklər çərçivəsində icmal büdcəyə daxil olan digər fondun - Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri və xərcləri də artırılacaq. Bu fondun gəlir və xərcləri bərabər həcmdə - 30 milyon manat (0,4 faiz) artırılmaqla 6 milyard 949,9 milyon manat təşkil edəcək. İcbari Tibbi Sığorta Fondunun gəlir və xərcləri də bərabər olaraq 38,9 milyon manat (1,4 faiz) artırılmaqla 2 milyard 850,3 milyon manata çatdırılacaq. İşsizlikdən Sığorta Fondunun gəlirləri və xərcləri isə dəyişməyəcək, gəlirlər əvvəlki layihədə təsdiq olunmuş məbləğdə, yəni 238 milyon manat həcmində qalacaq. Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlir və xərcləri bərabər səviyyədə, yəni 22,9 milyon manat (4,4 faiz) artırılmaqla 539,3 milyon manat təşkil edəcək. Eyni zamanda ölkə daxilində istehsal edilən və qiymətləri tənzimlənən yanacağın daşıyıcılar tərəfindən Naxçıvan Muxtar Respublikasına çatdırılması məqsədilə çəkilən əlavə xərclərin qarşılanması üçün nəzərdə tutulmuş 6,8 milyon manat vəsait muxtar respublikanın büdcəsindən çıxarılaraq dövlət büdcəsinin mərkəzləşdirilmiş xərcləri vasitəsilə təmin olunacaq. Bu səbəbdən dövlət büdcəsindən muxtar respublikanın büdcəsinə verilən dotasiyanın məbləği 6,8 milyon manat azaldılacaq.

**ELBRUS CƏFƏRLİ**

# 369 nəfər...

## Beynəlxalq birlik Ermənistanın davam edən mina terroruna səssiz qalmamalıdır!

Ermənistanın mina terroru davam edir. 30 illik işğal dövründə Ermənistan çoxlu sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. Xatırladaq ki, iyunun 21-də Cəbrayıl rayonu ərazisində minatəmizləmə prosesi zamanı baş verən partlayış nəticəsində ANAMA-nın əməkdaşı, 1980-ci il təvəllüdlü İsayev Raqif Deputat oğlu həyatını itirib. Hadisə zamanı müxtəlif dərəcəli bədən xəsarətləri alan digər şəxslər isə xəstəxanaya təxliyə ediliblər. Bununla da, 2020-ci il Vətən müharibəsindən bəri mina qurbanlarının ümumi sayı 369 nəfərə yüksəlib.

Cəbrayılda baş vermiş mina partlayışlarına Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva münasibət bildirib. Ombudsman qeyd edib ki, Ermənistan tərəfindən Azərbaycan torpaqlarında işğal dövründə basdırılmış minalar mülki şəxslərin və hərbi qulluqçuların həyatına təhlükə yaratmaqda və son qoymaqda davam edir. Azad olunmuş Cəbrayıl rayonu ərazisində son iki gündə baş vermiş partlayışlar nəticəsində Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşının həlak olması, bir neçə mülki şəxsin isə müxtəlif dərəcəli bədən xəsarətləri alması bunu təsdiqləyir. S.Əliyevanın bəyan etdiyi kimi, işğaldan azad edilmiş ərazilərimizdə basdırılmış minalar və partlamamış hərbi sursatlar bölgədə bərpa və yenidənqurma işlərinin icra edilməsinə, keçmiş məcburi köçkünlərin təhlükəsiz şəkildə öz yurdlarına qayıdışına və bu torpaqlarda yaşayışına, eləcə də ekoloji problemlər və onların yaratdığı fəsadlarla mübarizə dövründə sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin olunmasına ciddi maneə törədir. Ermənistan tərəfindən otuz ilə yaxın işğal dövründə basdırılmış minaların dəqiq xəritələrinin təqdim olunmaması isə onların beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərinə hörmətsizliyini hələ də açıq şəkildə nümayiş etdirməkdədir.

Beynəlxalq təşkilatlar Ermənistanın mina terroruna biganə qalmamalı, törədilən hərbi və ekoloji cinayətlərə, humanitar hüquq pozuntularına, o cümlədən uşaq hüquqlarının kobud şəkildə pozulmasına sərt reaksiya verməli, dəqiq mina xəritələrinin Azərbaycana təqdim edilməsi istiqamətində bu ölkəyə ciddi təsirlər göstərməlidir”.



Ombudsmanın da qeyd etdiyi kimi, mina qurbanlarının sayının artmasının əsas səbəblərindən biri Ermənistanın üzərinə götürdüyü öhdəliyə zidd olaraq dəqiq mina xəritələrini ölkəmizə verməməsidir. Məlumdur ki, müharibə başa çatandan sonra Ermənistan mina xəritələrinin bir hissəsini Azərbaycan tərəfinə təhvil vermişdi. Lakin araşdırmalar nəticəsində məlum oldu ki, erməni tərəfinin təqdim etdiyi xəritələrin cəmi 25 faizi düzgündür. Rəsmi Bakı dəfələrlə Ermənistana düzgün xəritələrin verilməsi ilə bağlı çağırış edib. Nəzərə almaq lazımdır ki, mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulması ilə yanaşı, insanlıq əleyhinə törədilən cinayətdir. Ona görə də, müvafiq beynəlxalq təşkilatlar, bütövlükdə dünya ictimaiyyəti Azərbaycanın çağırışlarına adekvat cavab verməli və bütünlüklə dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi üçün rəsmi İrəvana təzyiq göstərilməlidir. Bir sıra beynəlxalq təşkilatların nümayəndələrinin sadəcə mina qurbanları ilə bağlı başsağlığı verməsi kifayət deyil. Məsələn, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Peter Mixalko “X” hesabında belə bir paylaşım edib: “İyunun 21-də Cəbrayıl rayonunda ANAMA əməkdaşının mina partlaması nəticəsində faciəli şəkildə həlak olması barədə xəbəri dərin hüznlə öyrəndik. Həmin şəxsin ailəsinə dərin hüznlə başsağlığı veririk. Aİ azərbaycanlıların təhlükəsiz həyatı naminə mina təhlükəsinin aradan qaldırılması səylərində Azərbaycanı və ANAMA-nı dəstəkləyir”.

Azərbaycan öz ərazilərinin minalardan təmizlənməsi işində beynəlxalq təşkilatlardan fəal dəstək gözləyir. Ona görə də, qeyd etdiyimiz kimi, müvafiq beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələrin parlamentləri, insan haqlarının müdafiəsi ilə məşğul olan qurumlar Azərbaycana qarşı davam etdirilən mina terroruna biganə qalmamalıdırlar. Onlar bu məsələ ilə bağlı Ermənistana çağırış və təzyiqlər etməlidirlər. Çünki müharibənin bitməsindən xeyli vaxt keçməsinə baxmayaraq, çoxlu sayda insan mina qurbanı olmaqda davam edir. Bu səbəbdən də beynəlxalq birlik bu məsələdə Ermənistana ciddi təzyiq göstərməli, minaların dəqiq xəritələrinin verilməsini tələb etməlidir.

**NARDAR**

# Şuşa - müqəddəs duyğular şəhəri

Avtobus Şuşa yazılan məkana yaxınlaşır. Qala divarlarının üstünə qırmızı hərflərlə həkk olan bu adı görən kimi qeyri-ixtiyari gözlərim yaşarır. İlk dəfə olduğu kimi... O zaman, 2021-ci ildə ilk dəfə Şuşaya daxil olanda axıtdığım göz yaşlarımı 30 illik həsrətdən sonra sanki sonu xoş müjdə ilə bitən nağıl qutsallığına yozmuşdum. Eyni hal, eyni proses... Görünür, Şuşa daim içimizdə yaşatdığımız möcüzədir. Möcüzələr isə elə-belə, adiliklə qarşılanmaz.

Bu dəfə Şuşaya Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə keçiriləcək "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" beynəlxalq konfransında iştirak etmək üçün gedirik. Artıq üçüncü ildir ki, partiya tərəfindən iyunun 15-i ilə bağlı olan iki mühüm amilin qeyd olunması təntənəsi - Azərbaycan xalqı üçün mühüm olan bir tarixə - Milli Qurtuluş Gününə və Şuşa Bəyannaməsinin imzalanmasının ildönümünə həsr olunmuş konfrans ənənə halını alaraq Şuşada təşkil edilir. Türk dünyasının mədəniyyət paytaxtı, İslam dünyasının mədəniyyət paytaxtı olan Şuşa şəhərində!

Şuşa bizim üçün ilk növbədə, bədii-estetik yaddaşın məxəzi olmaq baxımından fərqli məkandır. Ölkə başçısı İlham Əliyev 2021-ci ilin yanvar ayının 14-də Ümummilli Lider Heydər Əliyevin 39 il əvvəl dayandığı məkanda dayanaraq demişdi ki, Şuşanın bərpası bu gündən başlayır. Maraqlıdır ki, işğaldan azad etdiyimiz digər rayonlarda bir çox infrastruktur layihələrin həyata keçirilməsinə başladıq. Füzulidə hava limanı tikildi, Zəngilanda "Ağıllı kənd" layihəsi gerçəkləşdirildi. Şuşanın bərpası isə mənəvi məkanların dirçəldilməsindən start götürdü. Bu ondan irəli gəlir ki, Şuşa bizim üçün hər zaman mədəniyyətin yükünü daşıyan metafizik, mistik mənaya malik simvol olub.

Ölkə başçısı İlham Əliyev tərəfindən 2021-ci il, mayın 7-də Şuşanın Mədəniyyət paytaxtı kimi bəyan edilməsi də Şuşa ilə bağlı bir sıra məqamlara geniş kontekstdə nəzər yetirməni yenidən gündəmə gətirdi, milli-mədəni və tarixi irsimizin qorunması və təbliğ olunması istiqamətində estetik bir dönəm başlandı. Bu labüdlüyə iki mühüm nümunəni Prezident özü göstərdi. "Xarıbülbül" musiqi festivalı və Vaqif Poeziya günlərinin təşkili Şuşanın ehtiva etdiyi zəngin mədəniyyətin bütün dünyaya uca səslə bəyanı idi. 1908-ci ildə V.D.Korqanov "Qafqaz musiqisi" əsərində yazırdı ki, "Zaqafqaziyaya musiqi xadimlərini çalğıçı və xanəndələrin, şeir, musiqi və mahnıların füsunkar vətəni olan Şuşa verdi". İlham Əliyev də vaxtilə Qafqazın və Şərqin müasir mədəni mərkəzlərindən biri olan, mədəniyyətlərin bütün sahələrini əhatə edən Şuşanın əzəli parlaq obrazını bərpa etmək, ona daha sivil və kreativ mahiyyət aşılamaq naminə müstəsna işlərə imza atdı və bununla Şuşaya unikal tarixi mövqe təmin etmiş oldu.

Qeyd edək ki, Şuşaya münasibətdə belə bir tarixi mövqeni ilk sərgiləyən şəxsiyyət, 1970-ci illərdə rəhbər vəzifədə olan böyük dövlət xadimi Heydər Əliyev olmuşdur: Şuşanın yalnız mənəviyyatımızın deyil, tariximizin, dövlətçiliyimizin, dilimizin, diriliyimizin qalası olduğunu sübut etmişdir. Bunun üçün onun təşəbbüsü ilə 1977-ci ildə Şuşa şəhərinin tarixi hissəsini tarixi-memarlıq qoruğu elan etmək haqqında qərar imzalanmışdır. Daha sonra, 1982-ci il, yanvarın 14-də Şuşada Vaqif məqbərəsinin ucaldılması əslində Heydər Əliyevin mənəviyyata, mədəniyyətə qoyduğu böyük abidə idi. Elə 2024-cü il, iyunun 15-də Türk Dövlətləri Təşkilatının iştirakı ilə gerçəkləşən konfransın da gerçəkləşməsində Ümummilli Lider Heydər Əliyevin danılmaz xidməti olmuşdur. Bunu öz çıxışında YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov da xüsusu vurğuladı: "O, istər fərqli siyasi-ideoloji mühitin, o cümlədən sərt qadağaların mövcud olduğu SSRİ dönəmində, istərsə də Azərbaycanın mürəkkəb geosiyasi şəraitdə çoxsaylı çağırışlarla üzləşdiyi müstəqillik dövründə Türk dünyasında birlik və həmrəyliyin təmin olunmasına, türk dövlətləri ilə münasibətlərin inkişafına xüsusi diqqət yetirmişdir. Çoxəsrlik tarixi köklərə, milli-mənəvi dəyərlərə əsaslanan Azərbaycan-Türkiyə münasibətləri müasir tariximizdə Heydər Əliyevin təşəbbüsü əsasında Araz çayı üzərində inşa olunaraq əzəli Azərbaycan torpağı - qədim türk yurdu Naxçıvanla Türkiyəni birləşdirən "Ümid" körpüsü ilə yeni məzmun almışdır. Ulu Öndər "bir millət, iki dövlət" olaraq səciyyələndirdiyi Azərbaycan-Türkiyə münasibətlərinin möhkəmlənməsi istiqamətində prinsipial siyasət həyata keçirmiş, nəticə etibarilə, iki qardaş ölkənin dostluq və tərəfdaşlıq əlaqələri dünyada nümunəvi xarakter almışdır.



Otuz ilə yaxın işğal dönəmindən sonra Şuşa öz azadlığına, ruhsal bütövlüyünə qovuşmaqdadır. Dövlət başçısı İlham Əliyev bu mənəviyyat qalamızı tarixin indiki aşamasında yenidən müqəddəs dəyər və sərvətə çevirir, ona yeni minilliyin, yeni epoxanın tərəqqi hərəkatında aparıcı obraz statusu qazandırır. Şuşada təşkil olunan "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" beynəlxalq konfransı da bu mənada, Prezidentin gördüyü işləri layiqincə davam etdirmək əzmi, onun yürütdüyü




siyasi kursa töhfə, türk birliyi ideyasına xidmət sayılmalıdır.

Biz artıq hər yeni günü, yeni təqvimi yalnız azad olunmuş yox, həm də dirçəldilmiş Qarabağın gücü ilə qarşılayırıq. Şuşa da gündən-gündən artır, böyüyür, gözəlləşir. Şəhər quruculuq təntənəsi içindədir. İnsan özünü burada böyük bir ordunun içində hiss eləyir. Bəlkə buna görə otelə yerləşən kimi şəhəri gəzməyə çıxıram. Özümü hürr və bəxtiyar hiss edirəm. Şuşada asudə gəzmək, küçələrini addım-addım dolaşmaq, havasını ciyərlərimə çəkmək, sənə yoldaşlıq edən təbiət gözəllikləri və quşların səsinə hakim kəsilərək hər anı yaddaşımın obyektivinə fokuslamaq istəyirəm. Şuşa müqəddəs duyğular şəhəridir. Çünki hansı tərəfə boylanırıqsa boylanaq dilimizin altında vird kimi şükranlıq dualarımız səslənir. Şəhidlərimizin pak ruhlarına, Ali Baş Komandanın əzminə, xalqımızın gücünə!

*Atıldı dağlardan zəfər topları,*
*Yürüdü, iləri əsgər, bismillah!*

*O xan sarayında çiçəkli bir qız*
*Bəkliyor bizləri zəfər, bismillah!*
*(Əhməd Cavad)*

Şuşanın qala divarlarına çatıram və nəyə görəsə 1918-ci ilin 7 oktyabrında Şuşada Zəfər qapısının önündə Şuşaya daxil olan ilk türk fatehini - Cəmil Cahid Toydəmiri xatırlayıram. "Azərbaycana Qafqaz İslam Ordusunun I diviziyasının komandanı kimi gələn Cəmil Cahid üstün hərbi zəkası ilə, Azərbaycanın, özəlliklə Bakının daşnak-bolşevik qüvvələrindən təmizlənməsində həlledici fədakarlıqlar göstərmiş, sonra Nuru Paşanın əmri ilə Bakıdan Qarabağa göndərilmişdi" (Azər Turan). Şuşalıları erməni zülmündən qurtaran xilaskarı, bu yolda 33 mehmetciyin şəhid olduğu o anı təxəyyülümdə canlandırmağa çalışıram. Şuşa uğrunda savaşın ilk şəhidləri olan 33 türk əsgəri və ilk fatehi Cəmil Cahid Toydəmir! Bu gün, bir əsr sonra ən gözəl münasibətlərini yaşayan türk birliyinin, qarşısında böyük hədəflər və öhdəliklər dayanan Türk Dövlətləri Təşkilatının əsasının qoyulduğu o dönəm tariximizin ən şərəfli tarixi kimi unikaldır - "Bəkliyor bizləri zəfər, bismillah"!

Bir əsr öncə böyük tarixi missiyanı gerçəkləşdirən bu əzm indi Türk Dövlətləri Təşkilatının simasında yeni bir missiya ilə üz-üzədir. Niyyət, amal yenə də birdir - sülh və harmoniyaya dəvət, xaosu ahənglə əvəzləmək, dünya nizamının pozulmamasına çağırış və s. Bu fikirlər ölkə başçısının konfrans iştirakçılarına ünvanladığı məktubda da ehtiva olunmuşdu: "Müasir dövrdə qlobal kataklizmlər beynəlxalq münasibətlər sisteminin geosiyasi reallıqlarından birinə çevrilmişdir. Xarici güc mərkəzlərinin təsiri və müdaxiləsi ilə dünyanın müxtəlif regionlarında çoxsaylı qarşıdurmaların - etnik və dini zəmində münaqişələrin, siyasi konfrontasiyaların baş verməsi, xaos və anarxiya mühitinin yaranması ayrı-ayrı dövlətlərə və bütövlükdə beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaratmaqdadır. Beynəlxalq hüquq normalarının kobudcasına pozulduğu və ikili standartlara əsaslanan selektiv yanaşmaların baş qaldırdığı belə bir şəraitdə milli maraqların qorunmasına hədəflənmiş və mövcud çağırışlara cavab verən siyasətin həyata keçirilməsi müstəqil dövlətlərin qarşısında duran başlıca vəzifələrdəndir. Son zamanlarda yeni strateji hədəflərə doğru inamla irəliləyərək dünya siyasətində yüksələn güc mərkəzinə çevrilən, beynəlxalq nüfuzu və geosiyasi təsir imkanları artmaqda olan Türk Dövlətləri Təşkilatında birləşən ölkələr də analoji çağırışlarla üzləşirlər. Yeni ittifaq modeli kimi dünyanın diqqət mərkəzində olan bu təşkilatda təmsil olunan ölkələrin sıx həmrəylik şəraitində dostluq və qardaşlıq prinsiplərinə, qarşılıqlı anlaşmaya, bərabərhüquqlu tərəfdaşlığa və çoxşaxəli əməkdaşlığa əsaslanan münasibətləri həm milli və regional səviyyədə, həm də qlobal miqyasda sabitliyə, təhlükəsizliyə və inkişafa xidmət edən çox




önəmli amildir".

İki il öncə, "Şuşa ili"ndə verdiyim bir müsahibədə qeyd etmişdim ki, "Şuşa ilə bağlı aparılacaq araşdırmaların tədqiqat sferasına Qarabağ dağlarındakı şamanlardan tutmuş Qarabağ dağlarındakı sufilərə, Qarabağda toxunmuş iki min beş yüz yaşlı Pazırıq xalçasındakı oğuz elementlərinə qədər hər kiçik nüans cəlb edilməlidir. Bu isə Qarabağın bir türk Vətəni olaraq daha qədim dövrlərdə formalaşdığının əyani dəlilidir və bu gün Azərbaycan ədəbi zehniyyəti Qarabağ amilinə daha dərindən nüfuz etmək üçün ona həm də bu rakursdan yanaşmalıdır. Çünki Şuşa elə Qarabağın özü deməkdir".

İndi budur, türk dövlətləri artıq böyük birlik, ittifaq nümayiş etdirirlər, müştərək əməkdaşlığa imza atırlar və bunu bütün dünyaya sərgiləmək üçün Şuşanı seçirlər.

**"Əziz Şuşa, biz səni dirçəldəcəyik"!**

Ali Baş Komandanın Şuşanın fəth edildiyi günlərdə səsləndirdiyi bu fikirlər hər azad olunan torpağa münasibətdə refren kimi təkrarlanmaqdadır. Bu fikrin əməli ifadəsi iki ölkə başçısının iştirakı ilə elə Şuşada imzalanan "Şuşa Bəyannaməsi" (15 iyun 2021) ilə başlamışdır. Bunu öz bəyanatında ölkə başçısı İlham Əliyev də qeyd etmişdir: "Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi tarixi sənəddir. Bu Bəyannamə bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır".

Bu müttəfiqlik sonradan digər türk ölkələri arasında yeni əməkdaşlıqlara, yeni quruculuq işlərinin başlanmasına rəvac verəcək qədər sərhədlərini genişləndirdi. Qurmaq, yaratmaq türkün fitrətindədir. Qarabağda atılan hər addım, Qubadlıda, Zəngilanda, Füzulidə, Şuşada görülən işlər anbaan böyüyən, artan, dirçələn gücün nümunəsi olaraq tarixi yada salmaqda, əcdadımızın ruhuna layiq davam tapmaqdadır. Bu davam bütün türk dövlətlərinin birliyi, qardaşlığı, dostluğu timsalında təkrarlanır və dünyanı heyrətdə qoyan münasibət statusu alır.

Türk dövlətləri arasında tərəfdaşlığın güclənməsinə, hər bir dövlətin milli gücünün artmasına və müasir beynəlxalq münasibətlər sistemində mövqelərin möhkəmlənməsinə hesablanmış bu konfrans da birgə əməkdaşlıq istəyi və ortaq təşəbbüslərlə yadda qaldı. Türkiyədən, Özbəkistandan, Qazaxıstandan, Şimali Kipr Türk Cümhuriyyətindən, Macarıstandan, Qırğızıstandan təşrif buyuran rəsmilərin hər birinin çıxışı vahid, yekparə bir məramın ifadəsinə yönəlmişdi: sabitlik, rifah, qarşılıqlı əməkdaşlıq, uğurlu gələcək vəd edən münasibətlər, gələcəyə hesablanmış yeni perspektivlər və s. Onlar böyük bir ağacın qolları kimi görünürdülər. Dünyada qlobal zor stixiyasının hökmfərma olduğu indiki zamanda dostluğu, qardaşlığı meyara çevirən siyasi gücün varlığının təminatçısı idilər. Bu güclər birləşmək, əməli işlərə imza atmaq, fəaliyyət göstərmək üçün bir yerdə idilər. Mehriban qonşuluq münasibətləri və onun əsasında zəmini qoyulan işlər bu gün türk birliyinin necə vacib olması faktını zəruri edirdi. Plenar sessiyada çıxış edən YAP Sədrinin müavini Tahir Budaqovun da qeyd etdiyi kimi, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması təkcə iki qardaş ölkə arasında əlaqələrin strateji tərəfdaşlıqdan müttəfiqlik zirvəsinə yüksəlməsi ilə əlamətdar deyil, eyni zamanda, regionda və bütövlükdə Türk dünyasında sabitlik, rifah və inkişaf üçün əlverişli zəmin yaratmışdır".

**"Şuşa Azərbaycanın gözüdür"!**

Ümummilli Lider Heydər Əliyevin vaxtilə qürurla və kövrək uslubda səsləndirdiyi bu ifadə öz əyanilik zamanını yaşayır. İndi bu müqəddəs məkana yalnız onun gözəlliklərini görmək, seyr etmək üçün gəlmirlər, həm də ahəng axtarmaq, nizama çağırış etmək, gülüstan yaratmaq üçün təşrif buyururlar. Şuşa hər zaman zirvədir! Mədəniyyətin zirvəsi, qəhrəmanlığın zirvəsi... İndi də birliyin zirvəsi kimi tarixi anlar yaşadı və yaşatdı...

***ELNARƏ AKİMOVA***
***YAP İdarə Heyətinin üzvü,***
***filologiya elmləri doktoru,***
***AMEA Nizami Gəncəvi adına***
***Ədəbiyyat İnstitutunda şöbə müdiri***

# Niyə 2026?

## İrəvan yenə və yeni manipulyasiyaya əl atır...

Ermənistanın yenidən sülh mövqeyindən uzaqlaşması müşahidə edilməkdədir. Aprel-may aylarında vasitəçisiz təmasların ardından mövqeyində sülhlə bağlı ştrixlərin gözə dəydiyi İrəvan yeni manipulyasiyalara əl atır. Belə ki, hələ 2022-ci ildə Azərbaycanın irəli sürdüyü sülh şərtlərində Ermənistanın ölkəmizə qarşı əsassız torpaq iddialarından əl çəkməsi ilə bağlı məsələ vardı. Qeyd edək ki, bu iddialar Ermənistanın əsas qanununda - Konstitusiyasında yer alır. Belə ki, Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-yə yenidən birləşmək haqqında" birgə qondarma qərardan bəhs olunur. Yəni, rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına iddia ortaya qoyur. Bu əsassız iddianın aradan qaldırılması üçün isə mütləq şəkildə Ermənistan Konstitusiyasında zəruri dəyşikliklər edilməlidir. Azərbaycan dövləti rəsmi olaraq dəfələrlə bu məsələni önə çəkib - bildirilib ki, Ermənistan Konstitusiyasında yer alan bu iddialar aradan qaldırılmasa, sülh məsələsi reallaşa bilməz.

Vurğulayaq ki, məsələ ilə bağlı dəfələrlə Ermənistanın siyasi rəhbərliyi fikirlərini bölüşüb - bu və ya digər şəkildə məsələnin öz həllini tapmalı olması onlar tərəfindən də etiraf edilib. Hətta ötən ay xalqa müraciətində baş nazir Paşinyan bu kimi əsassız iddialardan əl çəkilməsini Ermənistanın dövlətçiliyinin əsasının qoyulması ilə bağlamışdı. Ardından isə Ermənistanın dövlət rəsmiləri hətta yaxın bir ay içində sülhə bağlı nəticələrin əldə olunması imkanlarından bəhs açmışdılar. Amma deyəsən, erməni məkri yenə də "öz sözünü deyir"...

## Paşinyan yenə "gecikdirir"...

Erməni mətbuatının yazdığına görə, baş nazir Nikol Paşinyan 2026-cı ilin sonuna kimi yeni konstitusiya layihəsinin hazırlanması barədə tapşırıq verib. Qeyd olunur ki, Paşinyan Azərbaycanın Ermənistan Konstitusiyasının dəyişdirilməsi ilə bağlı davam edən tələbi fonunda bu qərarı verib: "Qərardan əvvəl 2022-ci ildə yaradılan Konstitusiya İslahatları Şurası konstitusiya dəyişiklikləri layihəsi hazırlayırdı. Konsepsiyanın ilkin variantı 2024-cü ilin yanvarında hökumətə göndərilib. İndi Paşinyan yeni konstitusiya layihəsinin hazırlanmasını tapşırıb. Qərarda "Konstitusiyaya dəyişiklikləri" əvəzinə, "yeni konstitusiya" ifadəsinin yazılması açıq şəkildə qeyd olunub".

Təbii ki, belə bir qərarın verilməsi Cənubi Qafqazda davamlı sülhün yaradılması üçün mühüm əsasdır. Amma məsələnin 2026-cı ilə qədər uzadılması bir az "düşündürücüdür". Əgər Ermənistan qısa zamanda sülh imkanlarının formalaşması perspektivindən danışırsa, Konstitusiya dəyişikliyini nə üçün 2026-cı ilə qədər uzadır? Əgər ortadakı məsələ "yeni konstitusiya" məsələsidirsə, oradakı çatışmazlıqları da qısa zamanda aradan qaldırmaq olar. Yəni, bu məsələni iki il uzatmaq üçün heç bir bəhanə ola bilməz.



## Fransanın "Minsk qrupu" oyunu...

Diqqəti bir məqam çəkir - son aylarda Ermənistanın yenidən bəzi "havadarlarının" qoltuğuna sığınmağa çalışması açıq şəkildə müşahidə olunmaqdadır. Fransadan öldürücü silahların alınması məsələsi İrəvanın heç də sülhpərvər mövqeyinin nümayişi sayıla bilməz - tam əksinə, bu silahların alınması Ermənistanın revanşist arzularını hələ də yaşatmaq istəyini ortaya qoyur.

Eyni zamanda, başqa dövlətlərlə bağladığı "sazişlər", "müqavilələr", yeni silahlanma prosedurlarına milyonlarla dollar vəsaitin "tapılması", üstəlik hərbi təlimlərin reallaşdırılması onu göstərir ki, Paşinyan hakimiyyəti özü üçün "uğurlu fürsət" anını gözləyir. Sülhü "Konstitusiya dəyişikliyi" bəhanəsi ilə 2 il gecikdirmək niyyəti də buradan qaynaqlanır. Ermənistan açıq şəkildə özü üçün "münbit zəmin"in yaranmasını gözləyir.

Burada digər diqqətçəkən amil rəsmi İrəvanın uzun müddətdir ki, davam edən ATƏT-in Minsk qrupunun tamamilə ləğv edilməsi məsələsindəki susqunluğudur. Bəlli olduğu kimi, Azərbaycan tərəfi bu il ərzində dəfələrlə beynəlxalq tədbirlərdə, eləcə də ikitərəfli görüşlərdə bu məsələyə diqqət çəkib. Bildirilib ki, Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini təmin edib, BMT TŞ-nın qətnamələri icra olunub. Artıq iki dövlət arasında bəzi regionlarda delimitasiya prosesinə də start verilib. Belə olan təqdirdə, ATƏT-in Minsk qrupunun hələ də saxlanılması məntiqəuyğun sayıla bilməz. Çünki qurumun yaranma səbəbi kimi qeyd edilən "Qarabağ münaqişəsi" artıq tarixə çevrilib, öz həllini tapıb. İndiki məqamda iki ölkə artıq vasitəçisiz təmaslara üstünlük verir. Beləliklə də, beynəlxalq hüquqa əsasən ATƏT-in Minsk qrupu tam şəkildə ləğv edilməlidir.

Amma prosesin yubadılması müşahidə olunur - xüsusilə, Minsk qrupunun "həmsədri" olmuş Fransanın məsələdə tutduğu qeyri-adekvat mövqe sülhə mane olmaqla yanaşı, Ermənistanın yeni eskalasiyaya şirnikləndirilməsi kimi aydınlaşır. Artıq "iqtidar kreslosu" laxlayan Makron Ermənistan vasitəsilə özünə siyasi dividend qazanmağa çalışır. Ölkəsində yaşanan siyasi böhrandan, ciddi diskriminasiyadan, irqi-dini ayrı-seçkiliklərdən, islamofobiyadan diqqəti yayındırmaq üçün Makron yenidən özünün "erməni kartı"ndan istifadə etməyə niyyətlənir.



## Ermənistan sülhə gəlməsə...

Amma bu cəhdlər faydasızdır - Ermənistan qeyri-konstruktiv mövqedən əl çəkməyərək sülhə razılaşmasa, yeni müharibələr "axtarışına" çıxsa, bölgədə yeni təhdidlər formalaşdırmağa çalışsa, yenə də cavabını layiqincə alacaq. Fransa və ya başqa dövlət isə Ermənistana heç bir kömək edə bilməyəcək - necə ki, əvvəlki dövrlərdə edə bilmədi. Bu mənada, Ermənistanın qısa müddətdə konstitusiyasında labüd dəyişiklikləri etməsi və sülhü imzalaması onların özləri üçün ən yaxşı yoldur...

***P.İSMAYILOV***

# "Sağlam həyat tərzi, sağlam düşüncə, uğurlu gələcək"

İyunun 24-də Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2024-cü il



üçün birgə Tədbirlər Planına uyğun olaraq Ağdaş rayonunda Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü və BMT-nin Ümumdünya Narkotiklər Əleyhinə Mübarizə Günü ilə əlaqədar "Sağlam həyat tərzi, sağlam düşüncə, uğurlu gələcək" mövzusunda tədbir keçirilib.

Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, Ulu Öndərin əziz xatirəsi anılıb. Daha sonra Heydər Əliyev Mərkəzi ziyarət edilib.

Rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə YAP Ağdaş rayon təşkilatının sədri Əlişah Rəcəbov, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Ağdaş Rayon İcra Hakimiyyəti başçısı aparatının Hüquq şöbəsinin müdiri, RİH yanında Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın katibi Şirazi Qasımzadə, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev və Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov çıxış ediblər.

Çıxış edənlər əvvəlcə ərazi bütövlüyümüz və suverenliyimizin bərpasına nail olan Azərbaycan Silahlı Qüvvələrinin qazandığı şanlı qələbənin əhəmiyyətindən, Vətən oğullarının misilsiz qəhrəmanlıq nümunələrindən danışıblar.

Natiqlər çıxışlarında narkomaniya ilə mübarizədə maarifləndirmə işinin əhəmiyyətini qeyd edib, yeniyetmə və gəncləri zərərli vərdişlərdən qorumaq üçün təbliğat işlərinin önəmindən bəhs ediblər. Vurğulanıb ki, Prezident İlham Əliyev tərəfindən təsdiqlənən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" bu problemlə sistemli mübarizə aparılması baxımından böyük önəm daşıyır: "Sağlam cəmiyyət naminə zərərli vərdişlərə qarşı mübarizə hər zaman aktualdır. Müasir dövrdə isə gəncləri zərərli vərdişlərdən qorumaq mühüm çağırışdır. Gənclər daha çox bi-



lik qazanmağa, sağlam həyat tərzinə üstünlük verməli, eyni zamanda, narkomaniyanın nə qədər zərərli və təhlükəli olduğunu bilməlidirlər".

O da diqqətə çatdırılıb ki, yeniyetmə və gənclərimizin təlim-tərbiyəsi, elmə, təhsilə və idmana marağının artırılması onların zərərli vərdişlərdən uzaqlaşmalarında vacib amildir.

Tədbir interaktiv formada davam edib və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Bizi birləşdirən ideya...

## Azərbaycançılığın təbliği necə aparılmalıdır?

Bu gün yalnız Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımız vahid bir ideologiya ilə yaşayır. Azərbaycançılıq adlanan bu ideya hər zaman xalqımızı bir amal uğrunda birləşdirib. Bu ideya dövlət-xalq birliyinin lazım olduğu bütün məqamlarda özünü ən yüksək səviyyədə göstərib. Azərbaycançılıq ideyası dünya azərbaycanlılarının təşkilatlanması, mədəni və mənəvi dəyərlərinin inkişaf etdirilməsi baxımından əvəzsiz hesab olunur.

Bütün həmvətənlərimiz arasında əlaqələri daha da yaxşılaşdıran, möhkəmləndirən azərbaycançılıq ideyası dövlətimizin xüsusi diqqət mərkəzində saxlanılır. Çünki azərbaycançılıq ideyası kimliyimizi əks etdirən və milli təfəkkürümüzü birləşdirən dəyər sayılır. Cəsarətlə deyə bilərik ki, xalqımızı birləşdirən bu ideya ilk növbədə müstəqilliyin qorunmasına, demokratik inkişafa, hüquqi, sosial dövlətin qurulmasına xidmət edir.

Mövzu ilə bağlı "Yeni Azərbaycan"a açıqlama verən politoloq İlyas Hüseynov bildirib ki, ictimai təbliğat nəticəsində azərbaycançılıq ideologiyası bu gün ölkəni ayaqda saxlayan, xalqı diri tutan və eyni zamanda dövlətlə vətəndaşlar arasında körpü yaradan əsas təməl sütunlardan biridir. Onun sözlərinə görə, azərbaycançılığın əsas elementlərindən biri vətəndaşlıqdır: "Azərbaycançılığın tərkib hissəsi olan vətəndaşlıq mövqeyi Azərbaycan əhalisinin bir xalq kimi birləşməsinə və dövlətçilik kursu ilə inkişafına əhəmiyyətli zəmin yaradır. Azərbaycançılıq milli dövlət ideologiyası kimi Azərbaycan Respublikasının Konstitusiya əsaslarına söykənən, Azərbaycanın müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına və milli təhlükəsizliyinin qorunmasına xidmət edən dəyərlər sistemidir. Məlumdur ki, dünya azərbaycanlılarını vahid ideya ətrafında birləşdirən ideoloji bünövrə məhz Azərbaycançılıq ideologiyasıdır. Xalqımızın milli-mənəvi dəyərlərinin müdafiə etməyi, qoruyub saxlamağı aşılayan, dövlət və vətəndaş mənafelərini üzvi şəkildə birləşdirən, həmçinin gənclərdə milli və hərbi vətənpərvərlik hissinin formalaşmasında mühüm rol oynayan Azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi üçün uğurlu təməldir. Azərbaycançılıq ideyası Azərbaycanın müstəqilliyini qorumaq, onun demokratik inkişafını təmin etməklə təşəkkül tapmış bir ideologiyadır. Bu ideyanın məqsədi çoxmillətli Azərbaycan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır. Bu ideologiya hər şeydən öncə, Azərbaycan xalqının bu günə qədər əldə etdiyi milli-mənəvi dəyərlərə sahib çıxmaq, Azərbaycan dilini, tarixini, mədəniyyətini bilmək, tarixən əldə etdiyimiz dəyərləri mühafizə etməklə, qloballaşan dünyada mövcud olan, yeni universal dəyərləri mənimsəməklə, bunları ümummilli mənafelərimizin qorunması istiqamətində səfərbər etmək deməkdir".

Politoloq qeyd edib ki, ötən illər ərzində bu ideologiyanın dünya azərbaycanlıları arasında daha dolğun şəkildə təbliğ olunması və yayılması istiqamətində dövlət tərəfindən bir çox addımlar atılıb: "Lakin bu, bir hoqiqətdir ki, istənilən işin uğurlu olması üçün dövlətlə yanaşı, hər bir vətəndaşın, qeyri-hökumət təşkilatlarının, o cümlədən ziyalıların, elm və mədəniyyət qurumlarının da üzərinə mühüm vəzifələr düşür. Azərbaycançılıq ideologiyasının daşıyıcısı olan vətənpərvərlik mövqeyi də dövlət quruculuğu prosesində olduqca vacib elementdir. Məhz bu mövqe dünyanın harasında yaşamasından asılı olmayaraq bütün azərbaycanlıların ümummilli məsələlərdə vahid mövqedən çıxış etməsini şərtləndirir.

Tarix elə gətirib ki, dünya azərbaycanlılarının yalnız təqribən beşdə biri müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Lakin qlobal dəyərlərin böyük əhəmiyyət kəsb etdiyi bir dövrdə azərbaycanlıların müxtəlif dövlətlərin vətəndaşları olması onların milli birliyi üçün böyük maneə yaratmır. Hər şeydən əvvəl ona görə ki, azərbaycanlıların siyasi iradəsini ifadə edən müstəqil dövləti, özünəməxsus adət-ənənələri, dili, dini və Azərbaycançılıq ideologiyası var. Yəni bu gün dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir soydaşımız Azərbaycançılıq ideologiyasından güc alaraq, ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında fəal iştirak etməlidir.

Eyni zamanda, azərbaycançılığın əsas istiqamətlərindən olan gənclərin milli ruhda tərbiyəsi xaricdəki soydaşlarımızın da daim diqqət mərkəzində olmalıdır. Xüsusilə də Azərbaycandan kənarda, ayrı-ayrı xarici ölkələrdə dünyaya gələn azərbaycanlı gənclərin öz ana dilində yazıb-oxuya bilməsi istiqamətində fəaliyyətə diqqət yetirmək lazımdır".

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliği" istiqaməti üzrə hazırlanmışdır**

# QHGT-nın Forumu

## Gənclər də iqlim fəaliyyətinə töhfə verir...

Bütün dünyanın aktual problemlərindən olan iqlim dəyişiklikləri ilə bağlı məsələlərin həllində cəmiyyətin bütün üzvlərinin iştirakı vacibdir. Xüsusilə gənclərin qlobal problemlərə aid müzakirələrə qoşulması son dərəcə təqdirəlayiqdir.

Məlum olduğu kimi, iyunun 20-də Bakıda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) təşkil etdiyi QHGT İqlim Fəaliyyəti Forumunun açılış mərasimi baş tutmuşdu. Forumda gənclərin iqlim fəaliyyətində iştirakının vacibliyi, bu istiqamətdə görülə biləcək işlər barədə müzakirələr aparılıb. 121 ölkənin gənclərini birləşdirən ən böyük beynəlxalq gənclər təşkilatı olan QHGT platformasının gənclərin iqlim fəaliyyətinə cəlb edilməsinin əhəmiyyəti vurğulanıb.

Bundan başqa, forumda COP29-un gənclərin səsini eşitmək üçün gözəl fürsət olduğu diqqətə çatdırılıb. Bakı və Şamaxı şəhərlərində beş gün davam edən foruma QHGT-nin bir sıra Milli Bölmələrinin nümayəndələri, yerli və əcnəbi gənclər, həmçinin dövlət qurumları və beynəlxalq təşkilatların nümayəndələri kimi yüksək səviyyəli qonaqlar və ekspertlər qatılıblar.

Dünən isə sözügedən forumun bağlanış mərasimi baş tutub. Mərasimdə çıxış edən QHGT-nin Baş katibi Nigar Bağırlı tədbir iştirakçılarının beş gün ərzində Bakı və Şamaxı şəhərlərində keçirilən forumda apardıqları fəal müzakirələrin və innovativ təkliflərin beynəlxalq iqlim prosesində önəmindən danışıb. Qeyd edib ki, müzakirələrin yekununda qəbul edilən sənəd COP29 Sədrliyinə təqdim olunacaq.

Azərbaycan Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik idarəsinin rəisi, COP29-un baş danışıqçısının müavini Samir Becanov çıxışında gəncləri foruma uğurla başa çatdırmaları münasibətilə təbrik edib. O, COP29 Sədrliyinin gənclərin iqlim danışıqlarında iştirakının dəyərindən bəhs edərək Qoşulmama Hərəkatına üzv ölkələrin gənclərini bu prosesdə fəal iştiraka çağırıb.

Forum müddətində gənc iştirakçılar mədəniyyətlərarası qarşılıqlı əlaqə yaratmaq üçün imkanlar əldə edib və xüsusilə mühüm qlobal problemlərin həlli üçün istiqamətində tutulmuş müxtəlif sessiyalara qatılıblar.

Qeyd edək ki, Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsi Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə yaradılıb. 2022-ci ilin iyulunda 60 dövlətin gənc nümayəndəsinin iştirakı ilə QH Gənclər Şəbəkəsi tərəfindən ilk dəfə keçirilən QH Gənclər Sammiti zamanı Şəbəkənin Təşkilata çevrilməsinə dair yekun sənəd olan Şuşa Akkordu qəbul edilib.



Hazırda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının üzv dövlətlər üzrə 59 milli bölməsi nəzdində fəaliyyət göstərən yüzlərlə fəal gənc QH ölkələri arasında beynəlxalq dialoqa təkan verir.

*Yeganə BAYRAMOVA*

# Hökumətin rəqəmsal uğuru...

## Dünya İqtisadi Forumu Azərbaycanın startaplar və innovasiyalar üzrə mühitini yüksək qiymətləndirib

Dünya İqtisadi Forumunun "IDEA: Azərbaycanın rəqəmsal iqtisadiyyatına investisiya" hesabatında Azərbaycanın müasir İT yenilikləri, startaplar və innovasiyalar üzrə yaratdığı əlverişli biznes mühiti müsbət qiymətləndirilib. Hesabatda vurğulanır ki, Azərbaycana birbaşa xarici investisiyaların əsas hissəsinin neft-qaz sektoruna daxil olmasına baxmayaraq, ölkədə fəaliyyət gös-




tərən xarici investorların fəaliyyətinə diqqətlə nəzər saldıqda yeni investisiya layihələrinin əksəriyyəti maliyyə, biznes xidmətləri, proqram təminatı, İT xidmətləri və sənaye avadanlıqlarının istehsalı kimi sektorlarda cəmləşib. Bu isə Azərbaycanın sosial-iqtisadi inkişaf məqsədlərinə xidmət etməklə qeyri-neft sahələrinin inkişafını və özəl sektorun fəaliyyətini stimullaşdırıb. Yeni yaradılmış sənaye texnoparkları və biznes inkubatorları rəqabətli sənaye məhsulunun istehsal və ixracında əhəmiyyətli rol oynayıb.

Rəqəmsallaşma Azərbaycanın son illər iqtisadi idarəetməsinin ayrılmaz tərkib hissəsi kimi xüsusi olaraq ön plana keçməklə cəmiyyətin və ölkəmizin inkişafına yeni yol açmaqdadır. Bu istiqamətdə ortaya qoyulmuş qarşısıalınmaz dərin iradə ölkəmizi artıq qabaqcıl dünyanın rəqəmsal sənaye ailəsinin üzvünə çevirib. Dünya Bankının ötən il dərc etdiyi "GovTech Yetkinliyi İndeksi"nin hesabatında yüksək nəticələr əldə edən Azərbaycan yüksək rəqəmsallaşma səviyyəsinə görə ən yaxşı ölkələr qrupunda yer alıb. "GovTech Yetkinlik İndeksi"nə görə, Azərbaycan rəqəmsallaşma sahəsində hökumət sistemlərinin təkmilləşdirilməsi, vətəndaşlara təqdim olunan xidmətlər paketinin genişləndirilməsi, vətəndaş iştirakının təmin olunması və rəqəmsal texnologiyalardan istifadənin təşviqi üzrə yüksək qiymətləndirilib.

Həm Dünya Bankının, həm də Dünya İqtisadi Forumunun hesabatlarından da göründüyü kimi rəqəmsal quruculuğun inkişafına töhfə verən müasir sənaye modellərinin yaradılması Azərbaycanın dünya iqtisadiyyatının rəqəmsal transformasiyasına, yüksək texnologiyalara əsaslanan istehsal ekosisteminin formalaşdırılması prosesində fəal iştirakına geniş imkanlar açmaqdadır. Xüsusilə də bu modellərin ən mükəmməli hesab edilən Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin yaradılması Azərbaycanın yeni sənaye texnologiyalarının tətbiqində qətiyyətli iradəsinin nümunəsidir. Yeni inkişaf trendlərinin tətbiqində ön sırada dayanan və rəqəmsal texnologiyaların ən əlverişli infrastruktur mərkəzlərindən birinə çevrilmiş Dördüncü Sənaye İnqilabı standartlar platformasının formalaşmasında mühüm rol oynayır. Bu Sənaye Mərkəzi qabaqcıl texnoloji imkanlardan maksimum yararlanmaq, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq və koordinasiyanı təmin etməklə, Azərbaycanın Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığını əlaqələndirir, rəqəmsal sənaye çağırışlarına həyata keçirir. MDB məkanında yaradılmış ilk sənaye modeli olan bu mərkəz Dünya İqtisadi Forumu ilə süni intellekt və maşınların öyrənilməsi, əşyaların interneti və şəhər transformasiyası, rəqəmsal ticarət və iqtisadiyyat platformaları ilə sıx əməkdaşlıq edir. Həmin əməkdaşlıq platformaları çərçivəsində hazırda iqtisadiyyatın rəqəmsallaşması sahəsində müxtəlif tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycan hökuməti rəqəmsal iqtisadiyyat quruculuğu istiqamətində ən son innovasiyaların tətbiqində çox maraqlıdır və bu istiqamətdə genişmiqyaslı islahatlar həyata keçirir. Rəqəmsal İqtisadiyyat Strategiyası və "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədləri çərçivəsində nəzərdə tutulan fundamental hədəflərin əsas qayəsi də dayanıqlı və rəqabətədavamlı rəqəmsal sənaye arxitekturasının möhkəmləndirilməsidir. Həmçinin, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində iqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyası, rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması istiqamətində ciddi tapşırıqlar müəyyən edilib. Bu məqsədlə həmin sahələrə xarici investisiyaların cəlb edilməsi, sərmayə iqliminin daha da təkmilləşdirilməsi və bu istiqamətdə islahatların həyata keçirilməsi nəzərdə tutulur.

Rəqəmsal qanunvericiliyin təkmilləşdirilməsi də yuxarıda vurğuladığımız prioritetlərin tərkib hissəsidir. Yeni hazırlanan "İnnovasiya fəaliyyəti haqqında" qanun layihəsi isə rəqəmsal iqtisadiyyatın şaxələndirilməsi və hasilat sənayesindən asılılığın azaldılması üzrə milli baxışı özündə əks etdirir. Layihədə yeni innovasiya texnologiyalarının daha geniş tətbiqi məqsədilə birbaşa xarici investisiyaların artırılması üçün yeni sərmayə təşviqlərinin verilməsi nəzərdə tutulur.

*Elbrus CƏFƏRLİ*

# Daha bir beynəlxalq etimad...

## Azərbaycana 2024-2025-ci illərdə IOTA-nın prezidenti səlahiyyətləri həvalə olunub

Azərbaycanın Dövlət Vergi Xidməti 2024-2025-ci illərdə Avropadaxili Vergi Administrasiyaları Təşkilatına (IOTA) prezidenti səlahiyyətlərini icra edəcək. Bu məsuliyyəti öhdəlik Macarıstanın paytaxtı Budapeşt şəhərində IOTA-nın 28-ci Baş Assambleyası çərçivəsində ölkəmizə həvalə olunub. IOTA prezidenti, Macarıstan Milli Vergi və Gömrük Administrasiyasının sədri Ferens Vaquhelyi Azərbaycanın vergi administrasiyasını təşkilatın 2 illik rəhbərliyini təsdiqləyib. Sessiyada IOTA İcraiyyə Şurasının üzvləri seçilib. İcraiyyə Şurasında Belçika, Estoniya, Finlandiya, Macarıstan, Rumıniya, İsveçrə və İsveç təmsil olunacaq. Qurumun prezidentliyini həyata keçirən Azərbaycan DVX isə İcraiyyə Şurasına sədrlik edəcək.



Qeyd edək ki, 1996-cı ildə əsası qoyulmuş IOTA-nın 44 üzvü var. Mənzil - qərargahı Macarıstanın paytaxtı Budapeştə yerləşən təşkilatın əsas missiyası Avropa regionunda vergi administrasiyaları arasında əlaqələri koordinasiya üzv ölkələrlə digər beynəlxalq və regional təşkilatlar arasında əməkdaşlığı təşviq etməkdir. Eyni zamanda, vergi inzibatçılığının təkmilləşdirilməsində ölkələrə köməklik göstərən qeyri-kommersiya xarakterli platforma rolunu oynayır. Təşkilat qabaqcıl fikir və təcrübə mübadiləsini həyata keçirən, müxtəlif mövzularda təlim və seminarlar təşkil edən qurum kimi də səmərəli fəaliyyəti ilə seçilir. Elecə də, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ilə sıx əməkdaşlıq edən IOTA Vergitutma Bazasının Aşınması və Mənfəətin Köçürülməsi (BEPS), beynəlxalq vergitutma sahəsində yeni tendensiyaların, o cümlədən "ikipilləli həll" qaydaları üzrə vergitutma, "qlobal minimum vergi"nin tətbiqi, rəqəmsal iqtisadiyyatın vergiyə cəlb edilməsi, transfer qiymətlərinin tətbiqi ilə bağlı yanaşma və digər məsələlərin təşviqində fəal rol oynayır.

Azərbaycanın vergi administrasiyası ilə IOTA arasında səmərəli əməkdaşlıq neçə illərdir ki, davamlı xarakter daşımaqdadır. Ölkəmiz 2002-ci ildə Avropadaxili Vergi Administrasiyaları Təşkilatına (IOTA) tamhüquqlu üzv kimi qoşulandan bəri bir sıra peşəkar seminarlar və forumlar keçirməklə qarşıya qoyduğu məqsədlərə nail olmaq fəallıq nümayiş etdirib. Azərbaycan son illərdə rəqəmsallaşmadan irəli gələn müasir vergi islahatları, elektron ticarət, e-audit, vergi risklərinin müəyyən edilməsi, insan resurslarının idarə olunması, digər yeni çağırışlar və potensial vergi imkanları qarşılıqlı şəkildə müzakirə edilib, qabaqcıl ölkələrin yeni vergi innovasiyaları sahəsində təcrübənin mənimsənilməsində bu təşkilatın köməyindən faydalanıb. Həmçinin, IOTA ilə əməkdaşlıq çərçivəsində müasir vergi siyasəti islahatları, vergi əxlaqı, qeyri-rezident e-ticarət iştirakçılarının ƏDV qeydiyyatı, vergi cinayətləri, vergi administrasiyalarının rəqəmsal transformasiyası ilə bağlı gələcək birgə layihələrin həyata keçirilməsi imkanları öyrənilməkdədir.

IOTA-nın prezidenti F.Vaquhelyi Azərbaycanın bu təşkilatın işində fəal iştirakını dəfələrlə yüksək dəyərləndirib və öhdəliyə layiqli riayət edən ölkə adlandırıb.

Bir neçə gün əvvəl IOTA-nın Budapeştdə keçirilən 28-ci Baş Assambleyasında da yuxarıda qeyd edilən mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb, Azərbaycanın bu istiqamətlər üzrə əldə etdiyi nailiyyətlərə toxunulub. Beynəlxalq vergi sistemində müasir trendlər və çağırışlar, vergi inzibatçılığının ortamüddətli dövr üçün prioritet inkişaf istiqamətləri barədə məlumat verən DVX-nin rəisi Orxan Nəzərli vergi sistemlərində qloballaşma və rəqəmsallaşmanın imkanlarından bəhs edib. Bildirib ki, beynəlxalq miqyasda bu transformasiya mükəmməl və müasir vergi sisteminin təşkilini, çağırışlara cavab vermək üçün vergi administrasiyalarının əməkdaşlığının gücləndirilməsini tələb edir. O, IOTA-ya rəhbərliyi dövründə Azərbaycanın üzv ölkələrlə əməkdaşlığın səmərəliliyinin artırılması üçün bütün səylərin səfərbər ediləcəyini vurğulayıb, bütün iştirakçıları ölkəmizdə təşkil olunacaq tədbirlər və planlaşdırılan təşəbbüslərdə fəal iştiraka dəvət edib.

*ELBRUS*

# İnvestisiyaların şaxələndirilməsi...

## Azərbaycan və Türkiyə qarşılıqlı sərmayə qoyuluşlarını artırır

2024-cü ilin birinci rübündə Azərbaycan Türkiyə iqtisadiyyatına 40 milyon dollar həcmində investisiya yatırıb. Mərkəzi Bankın (MB) məlumatına görə, bu rəqəm ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfə çoxdur. Hesabat dövründə Azərbaycanın Türkiyə iqtisadiyyatına yatırdığı investisiyaların məbləği qardaş ölkənin ümumi investisiya portfelinin təxminən 12,1 faizini təşkil edib. Bununla da Azərbaycanın investisiyalarının payı ötənilki 6,7 faizdən 5 faiz-bənd artmış olub. Yanvar-mart aylarında Türkiyənin Azərbaycan iqtisadiyyatına yönəltdiyi sərmayələrin həcmi isə 261,4 milyon dollar təşkil edib. Bu, Azərbaycanın iqtisadiyyatına qoyulmuş cəmi investisiyaların həcmində Türkiyənin payının 17-18 faizə bərabər olması deməkdir.

Qeyd edək ki, Türkiyənin Azərbaycana yatırdığı investisiyaların ümumi həcmi 12,5 milyard dollar, Azərbaycan şirkətlərinin Türkiyəyə yatırdığı investisiyaların həcmi isə 20 milyard dollara bərabərdir. Sərmayə qoyuluşlarının coğrafiyası çoxşaxəlidir və son illərdə bu tendensiya daha da artıb. Hazırda Türkiyədə 2 minə yaxın Azərbaycan şirkəti çalışır ki, onların bu ölkəyə yönəltdiyi investisiyalar tikinti, nəqliyyat, enerji, neft-kimya, sənaye və digər sahələri əhatə edir. Türkiyənin isə Azərbaycanda 4 mindən çox şirkəti fəaliyyət göstərir ki, onlar ölkəmizin iqtisadiyyatına yatırdığı sərmayələr maliyyə, bank, sığorta, rabitə, nəqliyyat, infrastruktur, sənaye, enerji, ticarət, kənd təsərrüfatı, turizm, xidmət və digər sahələrdə cəmləşib.



Azərbaycan və Türkiyə həm iqtisadi-ticari dövriyyənin, həm də qarşılıqlı xarici investisiyaların həcminin artırılmasını qarşıya əsas hədəflər kimi qoyub. 2021-ci il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsində əks olunmuş prioritetlər sırasında iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsi nəzərdə tutulub. Şuşa bəyannaməsi investisiyaların şaxələndirilməsi, xüsusilə də azad edilmiş ərazilərə axını üçün yeni yol açan mühüm strateji niyyətdir və Türkiyə şirkətlərinin Qarabağda sərmayə yatırmaq planları da məhz bu bəyannamənin imzalanmasından sonra praktik hal almağa başlayıb. Artıq Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarındakı filizçıxarma, sənaye, aqrar, aqrar-sənaye, "yaşıl enerji", turizm və xidmət sahələrində türk şirkətlərinin ilk özəl layihələrinin əsası qoyulub.

Azərbaycan və Türkiyə 15 milyard dollar olaraq hədəflənən ticarət həcminə nail olmaq üçün davamlı kompleks tədbirlər həyata keçirir. Bu tədbirlərdən biri kimi 1 mart 2021-ci ildən qüvvəyə minən Preferensial Ticarət Sazişi qeyd edilə bilər. Bu saziş 15 mal qrupu üzrə tariflərin azaldılması, qeyri-tarif maneələrinin aradan qaldırılması ilə iki ölkə arasındakı idxal-ixrac əməliyyatlarını artıraraq ölkələrin qoyduqları ticarət dövriyyəsi hədəfinə çatmasını sürətləndirəcək və eyni zamanda, sərmayələr üçün yeni axını təmin edəcək.

İki qardaş ölkə biznes icmaları arasında daha çox layihələrin icrasına və işgüzar münasibətlərin səmərəliliyinə xüsusi diqqət yetirərək qarşılıqlı sərmayələrin yatırılmasında bir sıra institusional və iqtisadi stimullardan, güzəşt alətlərindən də istifadə etməkdədir. 2024-cü il fevralın 19-da Prezident İlham Əliyevin Türkiyəyə səfəri zamanı iki qardaş ölkə arasında imzalanan gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında saziş bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Türkiyə və Azərbaycan bu sənədə imza atmaqla investisiyaların axınını artırmaq və biznesin müdafiəsinə sadiqliyini nümayiş etdirdi. Sözügedən vergi sazişinin iki ölkə arasında hüquqi-iqtisadi müstəvidə yeni münasibətlərin keyfiyyəti üçün əhəmiyyəti olduqca böyükdür. İndiyə qədər belə bir sazişin qüvvədə olmaması dövlətlərarası mal və xidmət ticarətinə, kapitalın, texnologiyanın və şəxslərin sərbəst hərəkətinə mənfi təsir edir, iqtisadi əlaqələrin hərarətinə maneə törədirdi. Xüsusilə də özəl sərmayələrin axınını ləngidirdi. Çünki investorlar hansısa bir dövlətdə investisiya qoymağı planlaşdırarkən kommersiya, sənaye, maliyyə və ya digər fəaliyyətlərlə məşğul olmağa başlamazdan və ya digər dövlətin hüquqi və fiziki şəxsləri ilə təsərrüfat əqdləri və əməliyyatlarına daxil olmazdan əvvəl eyni gəlirinin bu dövlətlərin hər ikisində vergiyə cəlb edilməyəcəyindən, onun üzərinə əlavə vergi yükünün düşməyəcəyindən və bütün bunların bazardakı mövqeyi və rəqabət qabiliyyətinə mənfi təsir etməyəcəyindən əmin olmağa çalışırlar. Buna görə də ikiqat vergitutmanın aradan qaldırılması haqqında saziş Türkiyə və Azərbaycanın investorlarının qeyd edilən narahatlığını da tam aradan qaldırmış olacaq, onların asan və maneəsiz sərmayə planlarını həyata keçirməsini təmin edəcək.

Saziş investisiya güzəştləri, stimullaşdırma tədbirlərini də nəzərdə tutur ki, bu da yaxın müddətdə türk sərmayəçilərinin Qarabağ və Şərqi-Zəngəzurda investisiya qoyuluşlarını optimallaşdıracaq. Hazırda Türkiyənin Azərbaycana yatırdığı investisiyaların həcmi 12 milyard dollar, Azərbaycanın Türkiyəyə yatırdığı investisiyaların həcmi isə 20 milyard dollar təşkil edir. Yaxın 5 ildə qarşılıqlı sərmayə qoyuluşlarının 2 dəfə artırılması, təkcə Türkiyə şirkətlərinin Azərbaycanda yatırdığı investisiyaların həcminin 25 milyard dollara çatacağı gözlənilir. Eyni zamanda, ən ana hədəf olan ticarət dövriyyəsinin həcminin 15 milyard dollara yüksəldilməsi də mümkünləşəcək.

*Elbrus Cəfərli*

# Mərkəzi Bank uçot dərəcəsini sabit saxladı

## Birrəqəmli inflyasiya uçot siyasətində yumşalmanın davam edəcəyini şərtləndirir



Mərkəzi Bankın (MB) İdarə Heyətinin qəbul etdiyi qərara əsasən, uçot dərəcəsi 7,25 faiz həddində saxlanılıb. Faiz parametrləri üzrə isə dəhlizin aşağı həddi 6,25 faizdə, yuxarı həddi isə 8,25 faizdə saxlanılıb. Yəni, uçot və faiz dərəcələrinin parametrlərində heç bir dəyişiklik edilməyib, mayın 2-də müəyyən edilmiş uçot siyasətinin eyni intervalda davam etdirilməsi məqsədəuyğun hesab olunub. Mövcud qərarın qəbul edilməsində də əvvəlki ssenariyə uyğun olaraq faktiki və proqnozlaşdırılan inflyasiyanın həddi, inflyasiya amillərinin dinamikası və risk balansının qiymətləndirilməsi amilləri əsas rol oynayıb, MB həmin bazar elementlərini nəzərə alaraq sabit uçot stavkasını davam etdirib.

Məlumdur ki, uçot dərəcəsinin müəyyən edilməsində inflyasiya faktoru başlıca rol oynayır, istehlak qiymətləri indeksinin artıb-azalması faiz dəhlizi ilə bağlı qərarı şərtləndirir. 2024-cü ilin yanvar-may aylarında istehlak bazarında qiymətlərin dəyişməsində ciddi artım tendensiyası baş verməyib, inflyasiya ötən ilin eyni dövrü ilə müqayisədə 0,6 faiz təşkil edib, ən aşağı birrəqəmli qiymət indeksi qeydə alınıb. Bu isə bazarın olduqca əlverişliliyini, heç bir risk faktorlarının olmadığını göstərir. Onu da qeyd edək ki, mövcud qərarın qəbul edilməsində xarici amillərin təsirləri nəzərə alınıb. İnflyasiyanın payında əsas yer tutan xarici faktor diqqətlə izlənilib. Son 2 ayda qlobal bazarlarda qiymətlər sabit qalıb və bir sıra mal qruplarında ucuzlaşmalar baş verib. Belə ki, istehlak qiymətləri indeksinin düşməsində daxili amillərlə yanaşı, xarici faktorun təsirləri də xüsusi rol oynayıb. Xüsusilə də inflyasiyanın strukturunda 60-70 faiz yer alan xarici amil daha ümidverici olub. Cari ilin 5 ayında dünya üzrə əmtəə qiymətləri indeksi aşağı düşməkdə davam edib. Xüsusilə də aprel-may ayında mal və xidmətlərin dəyəri 8,1 faiz, o cümlədən enerji qiymətləri üzrə 9 faizdən çox ucuzlaşıb və nəticədə idxal inflyasiyası təzyiqləri də azalıb.

Beləliklə, MB həm daxili bazardakı faktiki vəziyyəti və qarşıdakı dövr üzrə proqnozlaşdırılan inflyasiya gözləntilərinə, həm də xarici bazar konyukturasına əsaslanaraq, faiz dərəcələrinin sabit şkalada qalmasını uyğun hesab edib, əvvəlki aylarda olduğu kimi yumşaq monetar siyasət davam etdiriləcək.

Mərkəzi Bankın uçot dərəcəsini sabit saxlaması və ya 2 ay əvvəlki aşağı faiz siyasətini davam etdirməsi bankların əlverişli mühit çərçivəsində kredit faizlərini ucuzlaşdırmağa əsas verir. Hazırda Azərbaycan banklarının kredit portfeli hədsiz dərəcədə böyükdür və kredit vermək üçün qaynaqları yoxdur. Resursların həcmi istehlaka və iqtisadi sahələrə yetərincə kredit verməyə geniş imkan yaradır. Eləcə də bank sektorunun xalis mənfəəti son bir ildə əhəmiyyətli dərəcədə böyüyüb, 2024-cü ilin yanvar-aprel aylarında Azərbaycanın bank sektoru 407,5 milyon manat xalis mənfəət əldə edib. Bu göstərici ötən ilin eyni dövrünə nisbətən 18 faiz çoxdur. Həmin dövrdə bankların əməliyyat mənfəəti isə 14 faiz artaraq 585 milyon manata bərabər olub. Bu həcmdə mənfəət bankların kredit resurslarını təmin etməkdə nəhayətsiz portfelə malik olmasını təsdiqləyir. Ona görə də bankların kredit siyasətini yumşaltması üçün bütün fiziki imkanları mövcuddur. Bunu MB-nın bəyanatındakı bankların pul bazarındakı rolu ilə bağlı fraza da təsdiq edir. MB uçot dərəcələrinin sabit saxlanmasında bank faizlərinin təsir potensialını həmişə nəzərə alır ki, bu da bank sektorunda daha sərfəli kredit faizlər potensialının mövcudluğundan xəbər verir.

Uçot dərəcəsi ilə bağlı növbəti qərarlar yenə də xarici və daxili amillərə uyğun olaraq müəyyənləşəcək. MB faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərarı iyulun 31-də açıqlayacağını bildirir. Bu 40 gün ərzində uçot dərəcəsi xarici bazarlar, ölkədəki cari iqtisadi vəziyyət və inflyasiya səviyyəsi nəzərə alınaraq müəyyənləşəcək. Hazırda inflyasiyanın artımı üçün ciddi fundamental əsaslar yoxdur. Mövcud ssenarilər və qarşıdakı dövrə uyğun inflyasiya proqnozları və daxili bazar amilləri onu deməyə əsas verir ki, qarşıdakı aylarda istehlak qiymət indeksi sabit qalacaq.

Yeri gəlmişkən, Mərkəzi Bank bir müddət əvvəl 2024-cü ildə inflyasiya gözləntiləri ilə bağlı proqnozu da azaldıb və 12 aylıq baza inflyasiyanın 1 faiz təşkil edəcəyi gözlənilir. Həmçinin, "Standard & Poor's" beynəlxalq reytinq agentliyi bir neçə gün əvvəl açıqladığı yeni hesabatda Azərbaycanda 2024-cü il üzrə orta illik inflyasiyanın 3 faiz səviyyəsində proqnozlaşdırıldığını bildirib. Agentliyin hesabatında, həmçinin 2025-2027-ci illərdə orta illik inflyasiya gözləntilərinin 3 faiz olacağı qeyd olunur. Eləcə də Beynəlxalq Valyuta Fondunun proqnozlarında Azərbaycanda orta illik inflyasiya 2024-cü ildə 3,5 faiz, 2025-ci ildə 5 faiz 2029-cu ildə isə 4 faiz təşkil edəcəyinə dair qeydlər öz əksini tapıb. Eləcə də, Dünya Bankı ölkəmizdə inflyasiyanın 2024-cü ildə 3 faiz, 2025-ci ildə 3,5 faiz, 2026-cı ildə 4 faiz olacağını ehtimal edən açıqlama ilə çıxış edib. Həmçinin, Asiya İnkişaf Bankının proqnozlarına əsasən, Azərbaycanda orta illik inflyasiya 2024-cü ildə 5,5 faiz 2025-ci ildə isə 6,5 faiz olacağına dair ehtimallar yer alır.

Bütün bunlar inflyasiyanın birrəqəmli həddə saxlanılmaqla uçot siyasətində də yumşalmanın davam edəcəyini şərtləndirir.

*ELBRUS CƏFƏRLİ*

# Təxribatların izi ilə...

## Fransanın sonuncu "çıxış yolu"

Son günlər Ermənistanda müşahidə olunan proseslər heç də ürəkaçıcı deyil - ölkədə siyasi böhranın dərinləşməsi ilə yanaşı, Azərbaycana qarşı yeni aqressiyanın da ortaya çıxdığı müşahidə edilir. Xüsusilə, iki ölkə arasındakı şərti sərhəd bölgələrində tez-tez atəşkəsin pozulması, Ermənistan silahlı qüvvələrinin təxribatçı hərəkətləri və atıcı silahlardan istifadəsi birmənalı qarşılana bilməz. Maraqlıdır ki, bu atəşkəs pozulması faktları bütün şərti sərhəd xətti boyunca müşahidə olunur - məsələn, əgər iyunun 14-də Ermənistan silahlıları Soylan rayonunun Xaçık yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Axura yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimizə atıcı silahlardan atəş açırdılarsa, iyunun 22-də artıq koordinat dəyişib. Bu dəfə Kəlbəcər rayonunun Mollabayramlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimiz Ermənistan silahlı qüvvələrinin üzbəüz istiqamətdəki mövqelərindən atıcı silahlardan yenidən atəşə tutulub. Xatırladaq ki, bu barədə Azərbaycan Respublikası Müdafiə Nazirliyi məlumat yayıb. Azərbaycan Ordusunun qeyd olunan istiqamətdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb. Amma baş verənlər onu göstərir ki, bu kimi "atəşkəsin" pozulması faktları heç də "təsadüfi" atəş açılması deyil...

### Parisin verdiyi öldürücü silahlar...

2023-cü il antiterror əməliyyatlarından sonra yaranan "sükut" 2024-cü ildə pozulur. Ermənistan üzdə sülh prosesinə sadiq olduğunu bildirsə də, arxa planda yeni müharibəyə hazırlaşır. Bunu faktlar sübut edir. Xüsusilə, Fransanın ötən dövr ərzində Ermənistanı real və ardıcıl şəkildə silahlandırması mühüm məqamlardan xəbər verir. Əgər dünənə qədər, dəyəri milyon dollarla ölçülən və "Arquus" qrupunun istehsalı olan "Bastion" tipli zirehli texnika, MISTRAL 3 zenit-raket kompleksləri və başqa silahlar ötürülürdüsə, bu dəfə daha yeni silahlar verilir. Artıq Fransa Ermənistana yeni və daha öldürücü mahiyyətə malik silahlar ötürür. Məsələn, Ermənistanın müdafiə naziri Suren Papikyanın Parisə son səfəri zamanı imzalanan müqaviləyə əsasən İrəvana verilmiş "Caesar" haubitsalarının göstəricisi tamam fərqlidir - bu silah 54 kilometr uzaqlıqdakı hədəfləri vurmağa imkan verir. "Caesar" zirehli yük avtomobilinə bərkidilmiş artilleriya sistemidir. Bu səbəbdən artilleriya sisteminin yerini dəyişdirməsi asandır. Özüyeriyən "Caesar" artilleriya qurğusu 1994-cü ildə "Nexter" şirkəti tərəfindən hazırlanıb, kütləvi istehsalına 2002-ci ildə başlanılıb, Fransa ordusuna isə 2008-ci ildə təhvil verilib. Özüyeriyən artilleriya qurğusunun ekipajı 5 nəfərdən ibarətdir, 155 mm-lik topa malikdir. Beləliklə, Ermənistanın bu silahlar vasitəsilə Ermənistanı müharibəyə hazırlaşdırması faktı açıq şəkildə ortadadır. Çünki bu silahların qarşılığında ödəməyə pulu olmayan İrəvan Fransanın cızdığı yol ilə getməyə məcburdur - düzdür, yayılan xəbərlərdə yeni "silahlandırma müqaviləsi"nin dəyəri haqqında məlumat verilməsə də, bəzi mənbələrdə "Caesar" ar-



tilleriya qurğusunun birinin 7 milyon dollar qiymətində dəyərləndirilməsinə rast gəlmək olar. Bu isə olduqca böyük rəqəmdir. Demək ki, Fransa bu silahların qarşılığında Cənubi Qafqazda yeni eskalasiyalar yaratmaq, yeni təhdidlər formalaşdırmaq niyyətindədir. Bunun üçün isə ilk növbədə şərti sərhəd ərazilərində aranı qarışdırmaq - atəşkəsi pozmaq gərəkir...

### Paşinyana kilsə şantajı...

Fransanın tutduğu yolun bütün ştrixləri məlumdur - bölgədə yaranacaq yeni iqtisadi-siyasi mənzərəyə xələl gətirmək, bu prosesə müdaxilə imkanları yaratmaq istəyən Paris üçün ən əlverişli məqam gücsüz və iradəsiz Ermənistandan istifadə etməkdir. Bunun üçün isə real əsaslar da mövcuddur. Bir tərəfdən daxili arenada ara qarışdıran və sülhü şantaj edən "kilsəçiləri" dəstəkləyən Fransa, digər müstəvidə Paşinyan iqtidarını "Qaregin təhlükəsi"ndən qoruduğunu deyir, bunu əsaslandırmağa çalışır. Beləliklə, Makron Ermənistanda gedən proseslərə tam nəzarət imkanı qazandığını düşünür. Burada həlledici məqamlardan biri də Ermənistanda fəaliyyət göstərən Aİ-nin "müşahidə missiyası"dır. "Kilsə etirazçıları" haqda hansısa bir məlumat yaymayan və hətta bu etirazları pisləməyən fransız missionerləri bununla Ermənistan iqtidarına məsaj verir - prosesə tam nəzarətin əllərində olduğunu deyir. Ermənistanın əli ilə bölgəyə silah "daşıyan" Fransa həm də önə çıxmağa çalışır. Makron bununla özünün "müttəfiqlərini" offsayda salmaq, Ermənistana nəzarət məsələsində tək olmağa niyyətlənir.

### Aİ-nin "məqsədi" - Paris Cənubi Qafqaza gəlsin...

Azərbaycanla şərti sərhəd ərazilərində atəşkəsin pozulmasında Qərbin, xüsusilə Avropa kontingentinin Ermənistandakı "xüsusi missiyası"na başçılıq edən Fransanın əlinin olması şübhəsizdir. Ermənistanın timsalında özünün yeni "silah bazasını" formalaşdıran Fransa bunun "siyasi əsaslarını" Aİ-nin əli ilə yaratmaq istəyindədir. Bu amil Aİ-nin bu atəşkəs pozulması hallarına münasibətində də özünü göstərir. Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar "X" səhifəsindəki paylaşımında Ermənistan-Azərbaycan sərhədində gərginliyi azaltmaq və atəşkəs pozuntularını aradan qaldırmaq üçün ikitərəfli mexanizm yaradılması təklifini "isti qarşıladığını" deyir. Hətta məsləhət də verir - "Aİ-nin Gürcüstandakı monitorinq missiyası 15 ilə yaxındır fəaliyyət göstərir və təcrübəsini bölüşməyə hazırdır".

Birincisi, Aİ özünün fikirlərində səmimidirsə, şərti sərhəddə atəşkəsin Ermənistan tərəfindən pozulduğunu niyə etiraf etmir? İkinci bir tərəfdən isə, heç bir analogiya daşımayan "Gürcüstan nümunəsi" niyə ortaya qoyulur? Bu yolla Aİ və dolayısı ilə Fransa yenidən "vasitəçi" və ya "barışdırıcı" missiyasını üstlənməyə, prosesə müdaxilə imkanları qazanmağa, ATƏT-in Minsk qrupu tipində daha bir "missiya" yaratmaq eşqini biruzə verir. Beləliklə, tam aydın olur ki, Ermənistanın şərti sərhəd ərazilərindəki atəşkəs pozuntuları ilə Fransanın İrəvana silah satışı birmənalı şəkildə eyni prosesdir - hər iki məsələ, Parisin Cənubi Qafqaza "gəlişi" üçün zəmin yaratmağa hesablanıb...

**P.SADAYOĞLU**

# Rusiyada növbəti terror

## Bu dəfə kilsə və sinaqoq hədəfə alındı - əsas məqsəd isə...

Xəbər verildiyi kimi, iyunun 23-də Rusiya Federasiyasının Dağıstan Respublikasının iki şəhərində - inzibati ərazinin mərkəzi Mahaçqala və Dərbənd şəhərlərində qanlı terror hadisəsi baş verib. Adıçəkilən şəhərlərdə iki pravoslav kilsəsi, sinaqoq və yol polisi postuna silahlı hücumlar edilib. Rusiyanın Dağıstan üzrə İstintaq Komitəsi "terror aktı" maddəsi ilə cinayət işi açıb. Terror aktları nəticəsində, ilkin məlumatlara görə, Rus Pravoslav Kilsəsinin keşişi və polis əməkdaşları həlak olub. Regional Daxili İşlər Nazirliyinin yaydığı məlumatda bildirilib ki, hüquq-mühafizə orqanının 6 əməkdaşı həlak olub, 12 nəfər yaralanıb.

Dünən Milli Antiterror Komitəsinə istinadən yayılan xəbərdə bildirilirdi ki, Dərbənd şəhərində antiterror əməliyyatının aktiv mərhələsi başa çatıb. Eyni zamanda qeyd olunub ki, keçirilən antiterror əməliyyatı zamanı 6 yaraqlı məhv edilib. Bu barədə respublika başçısı Sergey Melikov məlumat verib. O, Mahaçqala və Dərbənddə əməliyyat-döyüş fəaliyyətinin aktiv mərhələsinin başa çatdığına aydınlıq gətirib. Rusiya Milli Antiterror Komitəsi beş terrorçunun - Mahaçqalada üç, Dərbənddə iki terrorçunun zərərsizləşdirildiyini bəyan edib.

Qeyd edək ki, Dağıstanın Serqokalinski rayonunun başçısı Maqomed Ömərovun iki oğlu Mahaçqaladakı terrorda iştirak edib. Öldürülmüş iki terrorçunun atası Maqomed Ömərov saxlanılıb, onun Serqakola kəndindəki evində axtarış aparılıb. Onun getdiyi məsciddə də axtarış aparıblar. Məlumata görə, Maqomed Ömərovun 10 oğlu var. Terrorda iştirak edən digər oğulları da zərərsizləşdiriliblər.

### Eyni koordinat - terrorda "islam izi"...

Baş verənləri təhlil etdikdə ortaya bir sıra məsələlər çıxır - aprelin əvvəlində Moskvada "Crokus City" Hollda baş verən terror təxribatından iki ay sonra Dağıstanda belə bir hadisənin baş verməsi düşündürücüdür. Bu mənada ilk versiya kimi hədəf birmənalı şəkildə Rusiyaya qarşı olan Qərb koalisiyasına tərəf çevrilir. İki ay öncə 150 nəfərdən artıq insanın həyatını itirdiyi və İŞİD terror təşkilatının Tacikistan qolu sayılan "Vilayəti Xorasan" qruplaşmasının məsuliyyətində qalan terror aktında olduğu kimi, bu dəfə də dini faktor ön plana çıxarılır. Terror hədəfinin məhz kilsə və sinaqoq olması bu faktı təsdiqləyir. Döyüş meydanında Rusiyaya qarşı açıq müharibədə iştirak edə bilməyən qüvvələr məhz bu yolla öz "varlıqlarını" və "müdaxilə imkanlarını" ortaya qoyurlar. Sirr deyil ki, Dağıstan Respublikası Rusiyanın dini cəhətdən radikal hesab edilən ərazilərindəndir - başqa sözlə, bu regionda istər miqrasiya etmiş Mərkəzi Asiya və Əfqanıstandan olan radikal dindar miqrantlar, istərsə də kifayət qədər radikal təfəkkürlü yerli sakin mövcuddur. Bu mənada, apreldə baş verən terror aktı zamanında olduğu kimi oxlar yenə də Qərbin nəzarətində olan İŞİD və ya onun regional qollarının üzərinə tuşlanır. Dövlət strukturlarına - polisə və hərbi qüvvələrə atəş açılması, partlayıcı və yandırıcı vasitələrdən istifadə olunması da bu versiyanı "dəstəkləyir". Çünki dini radikal qrupların "cihad" adı altında törətdikləri bütün terror aktlarının ilk hədəflərindən biri məhz dövlətin hüquq-mühafizə orqanlarıdır.

Digər vurğulanası əsas məqam terror zamanı kilsə və sinaqoqun yandırılması məsələsidir - bəllidir ki, hazırkı durumda Rusiyaya düşmən olmayan, neytrallığını qoruyan, bölgədə sabitliyin əldə olunması üçün çalışan ölkələrin mühüm əksəriyyəti müsəlman dövlətləridir. Hətta son "Brüssel konfransına" dəvətdən imtina edənlərin sırasında da müsəlman ölkələrinə daha çox rast gəlinirdi. Bu terror aktına da Qərbin İslam "qiyafəsi" geyindirməyə çalışması həm də Rusiyadakı ictimai rəyi İslam ölkələrinə qarşı yönəltməyə cəhddir. Kollektiv Qərb Rusiya üçün "güvəniləcək ölkələrin" siyahısından İslam dövlətlərini çıxmaqla yeni siyasi situasiya formalaşdırmağa niyyətlənib. Eyni zamanda, Rusiyanın daxilindəki müsəlman xalqlarına qarşı ayrı-seçkilik məsələsi də xarici mərkəzlərin ən sevimli mövzularından biridir. İndiki halda xüsusilə sosial





şəbəkələrə bu tip informasiyaların buraxılması, yenidən anti-İslam müzakirələrinin açılması daxili arenada çaşqınlıq yaratmaq üçün ən real "silahdır". Başqa sözlə, müharibədə üstünlük qazana bilməyən Qərb koalisiyasının bu yolla daxili çaşqınlıq və dini ayrı-seçkilik yaratmaq arzusu da istisna edilə bilməz.

### Hədəf sinaqoq, yoxsa İsrail - Rusiya münasibətləridir?

Terror aktı zamanı seçilən hədəflərin kilsə və sinaqoq olmasına bir daha diqqət yetirək - əgər, kilsənin yandırılması Rusiyadakı daxili proseslərdə nifaq yaratmaq niyyətini güdürsə, sinaqoqun yandırılmasının hədəfləri tamam fərqli xarakter daşıyır. Burada birbaşa Rusiyanın xarici siyasət istiqamətləri hədəfə alınır. Sirr deyil ki, 2022-ci ilin dekabrında keçirilən seçkilərdə Netanyahunun yenidən baş nazir postuna seçilməsi İsrail - Rusiya münasibətlərində yeni bir mərhələ başlatdı. Ukrayna-Rusiya müharibəsi səbəbilə zəifləyən əlaqələri yenidən gücləndirdi. İki il yaxındır ki, dövlətlərarası münasibətlər yenə də strateji müttəfiqlik səviyyəsindədir. Eyni zamanda, İsrail Rusiyanın güvəndiyi dövlətlərdən biri sayılır.

Beləliklə, terror aktında sinaqoqun hədəfə götürülməsinin ilk növbədə İsrail-Rusiya münasibətlərinə kölgə salmaq istəyindən qaynaqlandığı ortadadır. Rusiyanın məsələyə soyuqqanlı müdaxiləsi və terrorçuların qısa zamanda zərərsizləşdirilməsi onu göstərir ki, bu kimi qarşıdurma axtarışında olanlar öz niyyətlərinə çatmayıblar. Yeri gəlmişkən, İsrail XİN sinaqoqa hücumla bağlı məlumat yayıb. Məlumatda bildirilir ki, hücum zamanı Dərbənd və Mahaçqaladakı sinaqoqlarda dindarlar olmayıb.

*S.İSMAYILZADƏ*

# Orban xanım Lyayenin işindən niyə narazıdır?

## Macarıstanın Baş naziri hesab edir ki, son beş il Avropa İttifaqı tarixində ən uğursuz dövrdür

*Nardar BAYRAMLI*

Avropa İttifaqının strukturlarına rəhbərlərin seçilməsi hazırda gündəmin əsas mövzularından biridir. Avropa Parlamentinə iyunun 6-dan 9-dək keçirilmiş seçkilər Avropa İttifaqının əsas təsisatlarının, o cümlədən Avropa Komissiyasının rəhbərliyinin yenilənməsinə yol açır. Avropa İttifaqı strukturlarında mühüm postlardan biri də Avropa Komissiyasının Prezidenti vəzifəsidir. Qurumun hazırkı rəhbəri Ursula Fon der Lyayen hələ fevralın 19-da bu vəzifə üçün ikinci müddətə namizədliyini elan etmişdi. Onun təmsil olunduğu Avropa Xalq Partiyası da Avropa Parlamentinə seçkilərdə birinciliyi qazanıb. Bu fakt xanım Lyayenin yenidən Avropa Komissiyasının Prezidenti vəzifəsinə seçilməsi üçün ciddi əsas yaradır.

Ötən gün Brüsseldə keçirilən Avropa İttifaqı ölkələrinin qeyri-rəsmi sammiti çərçivəsində növbəti beş il üçün strateji gündəlik, həmçinin Avropa Komissiyası, Avropa İttifaqı Şurası və Avropa İttifaqının rəhbər postlarına namizədlər müzakirə edilib. Ursula Fon der Lyayen ikinci müddətə Avropa Komissiyasının rəhbəri olmaq üçün Avropa Parlamentində keçirilən səsvermədə ən azı 361 deputatın səsini qazanmalıdır.

Bununla belə, Aİ daxilində onun fəaliyyətindən narazı olan liderlər də var. Belə ki, Macarıstanın Baş naziri Viktor Orban Avropa Komissiyasının sədri Ursula Fon der Lyayenin bu vəzifəyə ikinci müddətə seçilməsinə qarşı çıxıb. Orban bu barədə "Funke" media qrupunun əməkdaşının sualına cavab verərkən deyib. "Yaşıl transformasiya tam uğursuz idarəçilikdir, miqrasiya paketi heç bir problemi həll etmir. Avropanın daha yaxşı liderliyə ehtiyacı var və bunu bacaran kifayət qədər istedadlı siyasətçilər mövcuddur", - deyə Viktor Orban bildirib. Avropa Parlamentinə seçkilərin nəticələrindən danışan siyasətçi onun uğursuzluqlarını xüsusilə vurğulayıb: "Son beş il Avropa İttifaqı tarixində ən uğursuz dövrdür. Avropa Komissiyasının və Brüsseldəki elitanın nəticələri zəif olub".

Xatırladaq ki, Macarıstanın Baş naziri bundan əvvəl də dəfələrlə Avropanın düşdüyü vəziyyətə görə Aİ rəhbərliyini ciddi tənqid edib. O, Avropa İttifaqı məkanında yaranmış problemlərdə rəhbərliyin əsas səbəbkar olduğunu bəyan edib. Baş nazir Orban hələ bir neçə ay öncə Avropa İttifaqının rəhbərliyində dəyişikliklərin tərəfdarı olduğunu bildirmişdi. "Brüssel avropalıların həyatını taleyin ümidinə buraxıb. Bir tərəfdən Brüsselin siyasəti, digər tərəfdən isə avropalıların ma-



raqları və iradəsi arasında heç vaxt bu qədər uçurum yaranmayıb. Avropa İttifaqının rəhbərliyində dəyişikliklərin edilməsi zəruridir. Bu, yalnız məqsədyönlü tədbirlər nəticəsində baş verə bilər",-deyə Orban vurğulamışdı.

Konkret olaraq, xanım Lyayenə gəlincə, onun adı korrupsiya əməllərində də hallandırılır. Belə ki, bu ilin aprelində Fransanın "Vətənpərvərlər" Partiyasının lideri Florian Filippo iddia etmişdi ki, Avropa Komissiyasının rəhbəri korrupsiya sxemi yaradıb. O zaman "Liberation" nəşri də sensasiya sayıla biləcək ittihamlarla çıxış etmişdi və Lyayenin öz partiyadaşı Markus Piperi Avropa Komissiyasında kiçik və orta müəssisələr üzrə müşavir postuna təyin etməsi ilə bağlı bir sıra faktlar açıqlanmışdı. Bildirilmişdi ki, Avropa Komissiyasının prezidenti bu postu öz korrupsiya əməllərini reallaşdırmaq üçün təsis edib, posta təyinatı da yaxın ətrafındakılara verib. Qəzet yazmışdı ki, əvvəllər də Ursula Fon der Lyayenin öz yaxın dostlarının, xüsusən də alman soydaşlarının komissiyada rəhbər postlara təyin edilməsinə çalışıb. Eyni zamanda, bu da söylənilirdi ki, Avropa Komissiyasının rəhbəri və "Pfizer" şirkətinin baş direktoru arasında COVID-19 vaksinlərinin alınması ilə bağlı korrupsiya razılaşması olub.

Bütün hallarda fakt budur ki, son illər Avropa İttifaqı məkanında problemlər xeyli dərəcədə artıb. Bu neqativ hallar bir sıra təşkilatların hesabatlarında da əksini tapır. Perspektivlər də nikbin deyil. Belə ki, Avropa İttifaqının Əsas Hüquqlar Agentliyinin (FRA) bu yaxınlarda açıqlanan son hesabatında bildirilirdi ki, yoxsulluq səviyyəsinin artması, demokratiyaya hücumlar, irqçilik və ksenofobiya, eləcə də miqrasiya problemləri 2024-cü ildə Avropa İttifaqında fundamental hüquqlar üçün əsas təhdidlər olacaq. Təşkilatın hesabatına əsasən, yaşayış xərclərinin, xüsusən də enerji qiymətlərinin artması ona gətirib çıxarıb ki, insanların 20 faizi (hər beş nəfərdən biri) səfalət içindədir. Bununla əlaqədar olaraq, Vyanada yerləşən agentlik üzv dövlətləri yoxsulluğun və elektrik enerjisinə xərclərin azaldılmasına dair tədbirlərin əhalinin ən aztəminatlı qruplarına şamil olunmasına çağırıb.

Agentlik, miqrasiya təzyiqini nəzərə alaraq, dənizdə axtarış-xilasetmə əməliyyatlarını gücləndirməyi (hesabata əsasən, 2023-cü ildə Aİ ölkələrinə üz tutan 4 mindən çox insan həlak olub) və gəldikdən sonra miqrantlarla ünsiyyət üçün daha təhlükəsiz şərait təmin etməyi tövsiyə edib. FRA, eləcə də dövlətin dinc yığıncaqlar və fikirləri ifadə etmək azadlığı hüququna münasibətdə həddən artıq müdaxiləsini pisləyərək qeyd edib ki, bu, mülki məkana təhdiddir və bütün Avropa ölkələrində demokratiyaya xələl gətirir. "İyirmi yeddi üzv dövlət, həmçinin vətəndaş cəmiyyətinin müdafiəsini gücləndirməli, antisemitizm və islamofobiyanın artması barədə xəbərdarlıq edərək, həyəcanlı tendensiya kimi təsnif etdikləri irqçilik və dözülməzliyin bütün formaları ilə mübarizə aparmalıdır",-deyə hesabatda vurğulanıb.

Göründüyü kimi, Avropa İttifaqı məkanında problemlər bütün sahələri əhatə edir və bu problemlər artmaqdadır. Macarıstanın Baş naziri Viktor Orbanın xanım Lyayeni yenidən Avropa Komissiyasının rəhbəri kimi görmək istəməməsi də bu nöqteyi-nəzərdən məntiqlidir.

# Aİ-nin 14-cü sanksiya paketində nələr var?

## Borrell Gürcüstan üçün Avropaya qapıları bağlaya biləcəyini iddia edir

*N.BAYRAMLI*

Avropa İttifaqına üzv dövlətlərin xarici işlər nazirlərinin son toplantısında Ukraynada davam edən müharibə, Rusiyaya qarşı sanksiyalar, Gürcüstanın Aİ-yə inteqrasiyası və digər məsələlər müzakirə mövzusu olub. Məlumdur ki, Rusiya-Ukrayna müharibəsində Avropa İttifaqı rəsmi Kiyevi dəstəkləyir. Aİ-nin sanksiyalarının məqsədi Rusiyanı zəifləmək, Ukraynanın isə müqavimət gücünü artırmaqdır.

Rusiya-Ukrayna müharibəsi bəzən sanksiyalar müharibəsi kimi də səciyyələndirilir. Xatırladaq ki, indiyədək Aİ mərhələlərlə Rusiyaya qarşı 13 sanksiya paketi tətbiq etmişdi. Bu sanksiyaların əhatə dairəsi kifayət qədər genişdir. Qadağalar ilk növbədə Rusiyanın iqtisadi gücünü zəifləmək̈lə bu ölkənin gündəlik müharibə xərclərini qarşılamaq imkanlarını məhdudlaşdırmaq məqsədi daşıyır. O cümlədən indiyədək Rusiyaya ticarət, maliyyə, enerji, sənaye, texnologiya, nəqliyyat, ikili və dəbdəbəli mallar, qızılla bağlı geniş məhdudiyyətlər tətbiq edilib. Bugünlərdə isə artıq Aİ tərəfindən 14-cü sanksiyalar paketi qəbul olunub. Rusiya Federasiyasının 116 fiziki və hüquqi şəxsi məhdudiyyətlərə məruz qalıb. Brüssel Rusiya ilə yanaşı, Çin, Birləşmiş Ərəb Əmirlikləri və Türkiyənin 61 kompaniyasını 14-cü sanksiya paketinə daxil edib, onlara ikili təyinatlı texnologiyaların ixracına məhdudiyyətlər qoyulub. Yəni səbəb həmin ölkələrin şirkətlərinin Rusiya ilə əməkdaşlığıdır.

Avropa İttifaqı Rusiyadan maye qaz almağa davam etsə də, onun təkrar ixracını qadağan edib. Eyni zamanda üçüncü ölkələrə hərbi məhsul satan Avropa şirkətləri onların Rusiyaya təkrar ixracı ilə bağlı riskləri müəyyənləşdirməli və qiymətləndirməlidir. Yeni sanksiyalar paketinə, həmçinin Rusiya maye qazının Avropa limanlarından tranzitinə məhdudiyyətlər, rusların Ukraynadan çıxardığı mədəni və tarixi sərvətlərin satışına qadağalar, bu ölkəyə helium idxalının, həmçinin elektron komponentlərin, manqan və digər nadir elementlərin ixracının məhdudlaşdırılması daxildir. Yeni sanksiyalar paketində Avropa İttifaqının aviakompaniyalarına rusiyalı fiziki və hüquqi şəxslərin sifarişi ilə çarter və şəxsi uçuşlar həyata keçirməkdə qadağan olunub.

Avropa İttifaqı Rusiya Mərkəzi Bankının SWIFT sistemini əvəz etmək üçün hazırladığı Maliyyə Mesajlaşma Sisteminə (SPFS) də sanksiyalar tətbiq edib. Bu sanksiyaya əsasən, Rusiyadan kənarda fəaliyyət göstərən Aİ təşkilatlarının SPFS və ya oxşar maliyyə mesajlaşma xidmətlərinə qoşulması qadağan ediləcək. Bundan əlavə, Aİ operatorlarına Rusiyadan kənarda SPFS-dən istifadə edən bir sıra təşkilatlarla əməliyyatlar aparmağa icazə verilməyəcək. Aİ hüdudlarından kənarda maliyyə institutları və kriptovalyuta tədarükçüləri ilə əməliyyatlar, əgər bu şirkətlər Rusiyanın hərbi-sənaye kompleksi ilə bağlı hər hansı əməliyyatlarda iştirak edirsə, bu da qadağan olunacaq. Hələ ötən həftənin sonunda "Bloomberg" SPFS-ə qarşı sanksiyaların mümkünlüyü barədə yazmışdı. Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen bildirmişdi ki, 14-cü sanksiyalar paketi "xaricdəki kölgə bank şəbəkəsinə" qarşı yönəldiləcək.

Qeyd edək ki, Aİ 14-cü sanksiyaların qəbulundan dərhal sonra 15-ci sanksiyalar paketi üzərində işə başlamağı qərara alıb.

Avropa İttifaqı-Gürcüstan münasibətlərinə gəlincə, tərəflər arasında problem rəsmi Tbilisinin "Xarici təsirin şəffaflığı haqqında" qanunu gündəmə gətirməsindən sonra başlayıb. Qərbin, o cümlədən Aİ-nin təzyiqlərinə rəğmən Gürcüstanda sözügedən qanun qəbul olundu. Hətta mövcud gərginliklər fonunda may ayında Gürcüstana Avropa İttifaqına üzv olan dörd ölkənin xarici işlər nazirlərinin səfəri və onların mü-



xalifətin etiraz aksiyasında iştirak etməsi də Gürcüstan hökumətinin mövqeyini dəyişdirə bilmədi. Belə ki, Litvanın xarici işlər naziri Qabrielius Landsbergis, Estoniyanın xarici işlər naziri Marqus Canka, İslandiyanın XİN başçısı Thordis Gilfadotri və Latviyanın xarici işlər naziri Baiba Braze mayın 15-də Tbilisiyə səfər edərək açıq-aşkar gürcü müxalifətinə dəstək nümayiş etdirmişdilər.

Yeri gəlmişkən, XİN başçılarının Brüssel toplantısında Aİ-nin xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borrell deyib ki, Avropa İttifaqı Gürcüstan hakimiyyətinin indiki siyasi kursunu davam etdirəcəyi təqdirdə bu ölkəyə "qapını bağlayacaq". O qeyd edib ki, belə davam edəcəyi təqdirdə Gürcüstana göstərilən maliyyə dəstəyi də azaldılacaq. Lakin Gürcüstan hökuməti sözügedən qanunu qəbul etməklə ölkəyə daxil olan çirkli pulların, qeyri-şəffaf qrantların qarşısını almaq, bu sahədə nizam-intizam yaratmaq istədiyini bəyan edib. Bu da Qərbin, o cümlədən Aİ-nin "maraqlarına" cavab vermir. Ona görə də, Brüssel rəsmi Tbilisiyə təzyiq göstərməkdə davam edir.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Ayrılığı qəbul edən peşə sahibləri...



## Dünya Dənizçilər Günüdür

*Yeganə BAYRAMOVA*

Çətin və şərəfli peşə sahibləri sırasında dənizçilər də yer alır. "Dənizçi dənizin dilini anlayar, dəniz isə dənizçinin kədərini, təkliyini alar"- deyirlər. Həm də dənizçi olmağı darıxmaq sözünə sinonim sayırlar - günlərlə, həftələrlə, bəlkə də aylarla su yolçuluğu edən dənizçilər bəzən su kimi sakit, bəzən dəniz kimi daşqınlıqları ilə də seçilirlər. "Allaha əmanət ol" deyərkən, həqiqətən də əmanətdir bu peşənin sahibləri... Dənizçiliyi seçənlər ayrılığı qəbul edir, dənizlərə meydan oxuyur və bəzən də böyük təhlükələrlə üz-üzə qalırlar. Məhz bu sahənin vacibliyini nəzərə alan İMO (Beynəlxalq Dəniz Təşkilatı) 2011-ci ildən başlayaraq hər il 25 iyun tarixinin Dünya Dənizçilər Günü kimi qeyd olunması təklifini irəli sürüb.

Günlərlə ailə üzvlərindən, sevdiklərindən uzaq olan mavi suların yolçuları ölkə iqtisadiyyatının inkişafında da böyük rol oynayırlar. Belə ki, dünya ticarətinin təxminən 90 faizi dəniz vasitəsilə həyata keçirilir. Yəni, geyimimizdən tutmuş, məişətdə istifadə etdiyimiz elektron əşyalara, hətta çörəyin hazırlanması üçün lazım olan taxıla qədər demək olar ki, əksər zəruri tələbat malları ünvanlarına gəmilərlə daşınır. Təbii ki, təlatümlü dənizləri, okeanları aşan gəmiləri idarə edən dənizçilər bu mənada böyük zəhmət çəkirlər - vacib bir missiyanı yerinə yetirirlər.

## Amerikanı kəşf edən...

Dünya Dənizçilər Günündən danışarkən həyat hekayələri uzun əfsanə və nağıllar subyekti olan dənizçilərdən də söhbət açmaq yerinə düşərdi. Bu zaman sual yaranır: Dünyanın ən məşhur dənizçisi kimdir?

Yəqin ki, ən məşhur dənizçilər sırasında Xristofor Kolumbun adını çəksək, yanılmarıq. Bu dünyaşöhrətli səyyah və dənizçi geniş coğrafi biliklərə sahib idi. O, dənizçilik işində böyük təcrübə toplayaraq, Yerin kürə formasında olduğu fikrini dəstəkləyib. Həmin dövrlərdə dənizçilər İspaniya və Portuqaliya, Hindistana və Çinə yeni dəniz yolu tapmaq uğrunda rəqabət aparırdılar. Kolumb bununla bağlı layihəsini Portuqaliya Kralı II Juana təqdim edir. Kral bu layihəni qəbul etmədiyindən Kolumb 1484-cü ildə Portuqaliyanın rəqibi olan İspaniyaya köçür. İspaniya kraliçası İzabella isə bu layihəni bəyənir. 1492-ci il oktyabrın 12-də Baham adalarından biri olan San-Salvador, oktyabrın 29-da Kuba, dekabrın 6-da Haiti adaları kəşf edilir. "Santa Mariya" gəmisinin qəzaya uğraması səbəbindən 1493-cü ildə geri qayıdan Kolumba kraliça tərəfindən "Baş okean admiral"ı rütbəsi verilir.

## 18 yaşından həyatını dənizə bağlamışdı...

Məşhur dəniz səyyahı Ceyms Kuk da məşhur dənizçi - səyyahlardandır. Nökər ailəsində dünyaya göz açan Kuk 18 yaşında ikən yaxın məsafələrə üzən gəmiyə işə düzəlməklə həyatını dənizə bağlayır. Fransa ilə İngiltərə arasında yeddiillik müharibədə bacarığı ilə seçilən ingilis səyyah 1759-cu ildə zabit rütbəsi alır, gəmi ilə Hollandiya, Norveç və digər ölkələrə səfər edir. Böyük elmi nəticələr verən üç dünya səyahəti edən Kukun ən uğurlu səyahəti ilk ekspedisiyası olur. Sözügedən ekspedisiyada səyyahın qarşısına qoyulan əsas məqsəd "Naməlum Cənub" torpağını tapmaq olur. Beləliklə, ilk dəfə sübut edilir ki, Yeni Zelandiya cənub materikinin bir hissəsi olmayan və boğazla iki yerə ayrılan adalardan ibarətdir. Daha sonra Avstraliyanın şərq sahillərini mənimsəyib xəritəyə köçürən Ceyms Kuk ilk dəfə onun ayrıca bir materik olduğu fikrini irəli sürür və onu sübut edir.



## Yer kürəsinin ətrafına ilk dövrə vuran dənizçi

Ferdinand Magellan isə Yer kürəsinin ətrafına ilk dövrə vuran dənizçi hesab olunur. Lakin Magellan dünya ətrafına ilk səyahətini başa çatdırmamış dünyadan köçür. Səfər bask dənizçisi Xuan Sebastyan de Elkano tərəfindən uğurla başa çatdırılır. 15-16-cı əsrlərdə İspaniya və Portuqaliya arasında torpaqların ələ keçirilməsi və yeni dəniz yollarının inkişafı uğrunda fəal rəqabət mübarizəsi gedirdi. 1505-1513-cü illərdə Magellan dəniz döyüşlərində iştirak edərək cəsur döyüşçü olduğunu da sübut edir. Bu keyfiyyətlərinə görə o, dəniz kapitanı rütbəsinə layiq görülüb.



## Futbol üzrə Azərbaycan I və II Liqalarının start tarixi bəlli olub

Futbol üzrə Azərbaycan I və II Liqalarının başlama tarixləri bəlli olub.

AZƏRTAC Peşəkar Futbol Liqasını rəsmi saytına istinadən xəbər verir ki, II Liqada mövsüm sentyabrın 1-də start götürəcək. On gün sonra isə I Liqada mübarizə başlanacaq.

Qeyd edək ki, I Liqada 10, II Liqada 14 komanda mübarizə aparacaq.

PFL
PEŞƏKAR FUTBOL LİQASI

## Azərbaycanın iki boksçusu Avropa çempionatına qələbə ilə başlayıb

Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda yeniyetmə boksçular arasında Avropa çempionatına start verilib.

Azərbaycan Boks Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, milli komandanın 2 idmançısı yarışa qələbə ilə başlayıb.




Kənan Aslanlı (63 kiloqram) 1/16 finalda Uilliam Murla (İngiltərə) qarşılaşıb. Döyüş 4:1 (29:27, 28*:28, 28*:28, 27:29, 28*:28) hesabı ilə boksçumuzun xeyrinə yekunlaşıb. K.Aslanlı ikinci görüşündə irlandiyalı Eduard Hartla üz-üzə gələcək.

Adil Zalov (66 kiloqram) da adını 1/8 finala yazdırıb. O, startda Luka Mazanaşvilini (Gürcüstan) mübarizədən kənarlaşdırıb - 3:1 (27:29, 30:26, 29:27, 28:27, 29:27). A.Zalov da növbəti döyüşündə irlandiyalını sınağa çəkəcək. Onun rəqibi Con Maher olacaq. Hər 2 görüş iyunun 25-də baş tutacaq.

Qeyd edək ki, yarış iyunun 30-da başa çatacaq.

## Azərbaycan ağırlıqqaldırma millisi ən yaxşılar arasında yer alıb



Yunanıstanın Saloniki şəhərində keçirilən 15 və 17 yaşlı yeniyetmələr arasında ağırlıqqaldırma üzrə Avropa birinciliyi başa çatıb.

AZƏRTAC xəbər verir ki, 38 ölkədən 415 (198 qız + 217 oğlan) idmançının iştirak etdiyi yarışda Azərbaycan yığması ümumilikdə 18 (8 qızıl, 5 gümüş və 5 bürünc) qazanaraq ən yaxşılar sırasında yer almağı bacarıb.

Qızlarımızdan Nuray Əbilova 1 gümüş (U-15, 40 kiloqram), Malikə Biçekuyeva 2 bürünc (U-15, 55 kiloqram), oğlanlardan isə Kamran Xappayev 3 qızıl (U-15, 61 kiloqram), Elman Kurdanov 2 gümüş və 1 bürünc (U-15, 67 kiloqram), İsa Əliyev 2 qızıl və 1 gümüş (U-15, 73 kiloqram), Aslan Əmiraslanov 3 qızıl (U-15, 89 kiloqram), Muhəmmədəli Məmmədzadə (U-15, 96 kiloqram) 1 gümüş və 2 bürünc medal qazanıblar. U-15 yaş qrupunda birdən-birə 3 idmançımız toplamda qızıl medal qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb ki, bu da tarixi uğurdur. 2018-ci ildə İtaliyanın Milan şəhərində keçirilən Avropa birinciliyində yaş qruplarında komandalarımız ayrılıqda 2 qızıl medal qazanmışdı. Bundan başqa, Milanda oğlanlardan ibarət U-15 komandamız cəmi 13 medal qazanmışdısa, bu dəfə bu rəqəm 15-ə qalxıb.

Yuxarıda qeyd olunan nəticələrə əsasən, yığma komandaların Avropa reytinqi müəyyən edilib. Burada Azərbaycan komandası növbəti uğura imza atıb. Belə ki, yığmamız 15 yaşadək atletlər arasında Avropa birinciliyində komanda hesabında II yeri tutub. Komandamız ümumilikdə 709 xal toplayaraq Türkiyə, Polşa, Bolqarıstan və digərlərini üstələyib. Qalib adını isə 742 xalla Gürcüstan qazanıb.

İdmançılarımız Avropa birinciliyində fərdi uğurlarla da fərqləniblər. Burada ən güclülər Sinkleyr cədvəli üzrə müəyyən edilib.

Nuray Əbilova yaşı 15-ə qədər qızların yarışında toplam 106 kiloqram nəticə və 447,82 xalla Avropa birinciliyinin 10 ən yaxşısı sırasında yer alıb.

Oğlanlarda bu yaş qrupunda 2 idmançımız ən yaxşılardan olub. 73 kiloqram çəki dərəcəsində çıxış edən İsa Əliyev toplam 249 kiloqram çəki ilə 488,13 xal toplayaraq Avropa birinciliyinin ən yaxşıları sırasında 4-cü yeri tutub. 61 kq çəki dərəcəsində çıxış etmiş Kamran Xappayev isə toplam 227 kiloqram nəticə və 522,42 xalla Avropa birinciliyinin ən yaxşı idmançıları sıralamasında 2-ci pillədə qərarlaşıb.

## Silahlı Qüvvələr Gününə həsr olunmuş ciu-citsu üzrə Açıq Bakı turniri keçirilib

Braziliya Ciu-citsu Klubu İctimai Birliyinin təşkilatçılığı ilə Azərbaycan Silahlı Qüvvələri Gününə həsr olunmuş Açıq Bakı turniri keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan və Braziliya Dövlət himnlərinin səsləndirilməsi ilə start götürən tədbirdə açılış nitqi ilə çıxış edən birliyin prezidenti Aqil Acalov günün önəmi ilə bağlı qısa məlumat verməklə yanaşı, fəaliyyət dövrləri ərzində əsas qayələrinin vətənpərvərliyin təbliği olduğunu vurğulayıb.

Daha sonra Azərbaycan Braziliya Ciu-citsu İctimai Birliyinin təsisçisi, ölkədə bu döyüş sənətinin banisi olan Taleh Həsənov bütün iştirakçılara uğurlar arzulayıb.

İctimai birliyin sədri Fuad Kərimov isə bu idman növünün perspektivlərindən danışıb.

Sonda çıxış edən Braziliyanın Azərbaycandakı səfiri Manuel Monteneqro bu idman növünün iki ölkə arasında ortaq dəyərlərin formalaşmasındakı rolunun önəmini vurğulayaraq, münasibətlərin hərtərəfli və sıx olmasından məmnunluğunu dilə gətirib.



Qeyd edək ki, müxtəlif yaş qrupları və çəki dərəcələri üzrə 200-dən çox idmançının yer aldığı turnirin sonunda qaliblər müvafiq nominasiyalar üzrə diplom və medallarla təltif olunublar.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5746**
**Sifariş: 1430**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova